25 may 2022 №39 (1912)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Şuşada Türk Dövlətləri Təşkilatı çərçivəsində biznes forum keçiriləcək



Türk dünyasından olan özəl şirkətlər və iş adamları Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən quruculuq layihələrinə böyük maraq göstərir.

Bu barədə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Bağdad Amreyev mayın 24-də Prezident İlham Əliyev ilə görüşdə deyib. Baş katib iyun ayında Şuşada Türk Dövlətləri Təşkilatı çərçivəsində genişmiqyaslı biznes forumun keçirilməsi niyyətinin olduğunu da diqqətə çatdırıb.

Görüşdə torpaqlarımızın Ermənistan tərəfindən işğalı zamanı və Vətən müharibəsi dövründə təşkilatın Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyin əhəmiyyəti bir daha vurğulanıb.

Bağdad Amreyev Şuşanın 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunduğunu qeyd edərək, gələn il də Azərbaycanla birlikdə Şuşada çoxsaylı mədəniyyət tədbirlərinin keçiriləcəyini deyib.

## Azərbaycan-Ermənistan sərhədində ilk görüş baş tutdu

Mayın 22-də Brüsseldə əldə edilmiş razılaşmalara uyğun olaraq, mayın 24-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın Ermənistan-Azərbaycan sərhədində iki ölkə arasında sərhədin delimitasiyası üzrə komissiya formatında ilk görüşü keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, tərəflər delimitasiya və digər məsələlər üzrə Komissiya çərçivəsində işləməyə hazır olduqlarını təsdiq ediblər. Komissiyanın birgə fəaliyyətinin təşkilati və prosedur məsələləri müzakirə edilib.

Tərəflər, dövlətlərarası sərhəddə görüşlərlə yanaşı, komissiyanın növbəti iclaslarının fərqli yerlərdə keçirilməsinin məqsədəuyğunluğu barədə razılığa gəliblər. İkinci görüşün Moskvada, üçüncü görüşün isə Brüsseldə keçirilməsi barədə razılıq əldə edilib.

## Şamaxı gələn il "Türk Dünyasının Turizm Paytaxtı" olacaq

Şamaxı şəhəri 2023-cü il üçün "Türk Dünyasının Turizm Paytaxtı" seçilib. Bu barədə qərar Türk Dövlətləri Təşkilatı (TDT) turizm nazirlərinin mayın 24-də Şamaxı şəhərində keçirilən 7-ci iclasında qəbul edilib.

səh. 2

## "Azərbaycanım" festivalı çərçivəsində müsabiqənin sərgiləri açılıb



"Azərbaycanım" V Respublika Uşaq Rəsm Festivalı çərçivəsində elan olunmuş müsabiqə başa çatıb.

Sayca beşinci müsabiqə ötən illərdə olduğu kimi, üç yaş kateqoriyasında keçirilib və hər kateqoriya üzrə ayrıca sərgilər təşkil edilib. Müsabiqəyə seçilmiş əsərlər 18-21 may tarixində Xətai Sənət Mərkəzində nümayiş olunub.

Festival 27-28 may tarixlərində Xətai Sənət Mərkəzində keçiriləcək.

səh. 7

# Bakı ilk dəfə beynəlxalq piano festivalına ev sahibliyi edir

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 20-27 may tarixində Bakıda ilk dəfə beynəlxalq piano festivalı keçirilir. Müxtəlif ölkələrdən ifaçıların qatıldığı festivalın proqramına ümumilikdə 15-ə yaxın konsert daxildir.



Piano musiqinin istənilən janrında musiqi ifa etmək üçün mükəmməl alətdir. Festival M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında klassik musiqi ilə açıldı.

Açılış mərasimində çıxış edən mədəniyyət naziri Anar Kərimov ölkəmizdə piano ifaçılığı sənətinə gənclərin daha çox cəlb edilməsi, yeni istedadların üzə çıxması və gənc nəsildə bu sahəyə maraq yaradılması baxımından festivalın əhəmiyyətini qeyd etdi. Bildirdi ki, ölkəmizdə ilk dəfə təşkil edilən və bir həftə davam edəcək festivala dünyanın müxtəlif ölkələrindən ifaçılar qatılıb: "Proqram üzrə müxtəlif janrlarda piano konsertləri paytaxt sakinlərinə və şəhərimizin qonaqlarına maraqlı, yaddaqalan günlər vəd edir. Azərbaycanda piano ifaçılığı ənənələri çox zəngindir və biz bununla fəxr edirik. Gələcəkdə festivalın Bakı ilə yanaşı, regionlarda da keçirilməsini planlaşdırırıq".

Fransanın Azərbaycandakı səfiri Zakari Qross festivalın ərsəyə gəlməsində əməyi olanlara təşəkkürünü bildirdi. O, festival proqramında məşhur fransız pianoçunun çıxışının da yer almasından məmnunluğunu ifadə etdi: "Lüdviq van Bethovenin bu gün səslənəcək "Fortepiano və orkestr üçün 5 nömrəli konsert"ində bəstəkar incəsənətin müharibəyə qalib gəlməsini təcəssüm etdirib. İndiki Avropanın durumunda bu, olduqca vacib məsələdir".

davamı səh. 3-də

## Postmünaqişə dövründə humanitar gündəliyin mədəni tərəfi

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə 19-20 may tarixlərində Şuşa şəhərində "Postmünaqişə dövründə humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans keçirilib.




Beynəlxalq konfransda İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, TÜRKSOY-un Baş katibi Sultan Raev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, digər beynəlxalq qurumların təmsilçiləri, müxtəlif ölkələrdən ekspertlər iştirak ediblər. BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anhel Moratinos konfransa videoformatla qoşulub.

Konfransın ikinci iş günündə iki plenar sessiya keçirilib.

"Keçmiş problemlər - gələcək perspektivlər: urbisid kontekstində irsin idarə olunması siyasətinin təbiqi" adlı sessiyada mədəni irs üzrə ekspert Alessandro Bianki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi İdarə heyətinin sədri Məftun Abbasov, "Romualdo Del Bianko" fondunun baş katibi Simone Ciometti, "Cultural Futures LLC" təşkilatının direktoru Terri Sandel, Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurası – İCOMOS-un Azərbaycan Milli Komitəsinin prezidenti Sədaqət Davudova, "Viafrancigena" mədəni marşrutu elmi komitəsinin üzvü Kristian Şule çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Şuşa nəinki Azərbaycan üçün, həm də region üçün mühüm əhəmiyyətə malik bir şəhərdir. Qeyd edilib ki, Azərbaycan dövləti tərəfindən Qarabağda həyata keçirilən bərpa prosesi dünya üçün yeni bir nümunədir və burada öyrəniləsi çoxlu dərslər var.

davamı səh. 3-də

## Fransada "Şuşa İli"nin konsertləri

"Şuşa İli" və Azərbaycanın UNESCO-ya üzvlüyünün 30 illiyi çərçivəsində Strasburqda "Qarabağ" muğam qrupunun konserti keçirilib.

Azərbaycanın Avropa Şurası yanında Daimi nümayəndəliyinin və UNESCO üzrə Milli Komissiyasının birgə təşkilatçılığı ilə Strasburqun mərkəzindəki Sen Pyer-lö-Jön kilsəsində gerçəkləşən tədbirdə təşkilatın rəsmiləri, diplomatik korpusun təmsilçiləri, yerli ictimaiyyət, habelə Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Konsertdən əvvəl çıxış edən Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi münasibətilə dünyanın bir çox yerlərində silsilə tədbirlər keçirildiyini diqqətə çatdırıb. Daimi nümayəndə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın işğaldan azad edilməsinin xalqımızın qürur və şərəf dolu zəfər tarixi olduğunu, hazırda bu qədim şəhərin yeni intibah dövrünə qədəm qoyduğunu vurğulayıb. F.İsmayılov bu il Azərbaycanın UNESCO-ya üzvlüyünün 30-cu ilinin tamam olmasından da söz açıb.

Konsertdə Xalq artisti, ustad xanəndə Mənsum İbrahimov və gənc xanəndə Gülzar Fərəcova Xalq artisti Elçin Həşimov (tar),



Əməkdar artist Elnur Əhmədov (kamança) və Kamran Kərimovun (nağara) müşayiətində Azərbaycan xalq mahnıları, təsniflər və muğam nümunələrini ifa ediblər.

"Junior Eurovision-2021" mahnı müsabiqəsində Azərbaycanın təmsilçisi olmuş Sona Əzizova "Şuşam mənim" və "O günlərdən biri" mahnılarını oxuyub.

mövzunun davamı səh. 8-də

## Vyanada "Odlar yurdunun sədaları"

Avstriya paytaxtında fəaliyyət göstərən Azərbaycan Akademik Birliyinin təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyi, Diaspora ilə İş üzrə Dövlət Komitəsi, Avstriyadakı səfirliyimiz, Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) və "CultureMeetingPoint" təşkilatının dəstəyi ilə keçirilən "Odlar yurdunun sədaları" beynəlxalq musiqi müsabiqəsinə yekun vurulub.



Azərbaycan klassik musiqisinin təbliği məqsədi daşıyan müsabiqənin finalı mayın 21-də Vyanadakı AMM-də gerçəkləşib.

Azərbaycan Akademik Birliyinin sədri, mənzil-qərargahı Vyanada yerləşən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin əməkdaşı Kamal Əkbərov tədbiri açaraq klassik musiqinin beşiyi sayılan Vyana şəhərində belə bir müsabiqənin keçirilməsinin əhəmiyyətini vurğulayıb, layihənin bütün tərəfdaşlarına minnətdarlığını bildirib.

davamı səh. 8-də

## İstiqlal mübarizəmizin mühacir ədibi

XX əsrin birinci yarısında Azərbaycan milli istiqlal mübarizəsində fədakarlıq göstərən ziyalılarımızdan biri jurnalist, şair və yazıçı Mirzə Bala Məhəmmədzadə olub. Cümhuriyyət sevdalısı olan ədib haqsız təqiblər üzündən mühacir ömrü yaşayıb. Mübarizə əzmini itirməyərək milli düşüncə naminə yazıb-yaradıb.

Mirzə Bala Məhəmmədzadə 1898-ci ildə Bakının Zirə kəndində dünyaya göz açıb. Bir müddət sonra ailəsi Bakının Çəmbərəkənd məhəlləsində məskunlaşır. O, ilk təhsilini rus-tatar (Azərbaycan) məktəbində alır. Sonra görkəmli maarifçi Həbib bəy Mahmudbəyovun məktəbində təhsilini davam etdirir. Ərəb və fars dillərini öyrənir. Şagirdlər arasında nümunəvi davranışı, iti yaddaşı və aydın nitqi ilə seçilir.

davamı səh. 6-da

"Şərqdə doğan ilk hürriyyət"



səh. 2

Dünyanın bizdən daha yaxşı tanıdığı bəstəkar

Firəngiz Əlizadə ilə yubiley söhbəti

səh. 5



Türkiyənin bayramı Gəncədə qeyd olunub

səh. 4

№39 (1912)
25 may 2022
www.medeniyyet.az

# Brüsseldə mühüm nəticələr vəd edən razılıqlar əldə olunub

Mayın 22-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın növbəti görüşü keçirilib.

Qeyd edək ki, bu, "Brüssel formatı"nda sayca üçüncü görüşdür. Avropa İttifaqı Şurası Prezidentinin vasitəçiliyi ilə ilk görüş 2021-ci il dekabrın 14-də, ikinci görüş 2022-ci il aprelin 6-da keçirilmişdi.

"Brüssel formatı"nda növbəti görüş beş saata yaxın davam edib. Şarl Mişel görüşün yekunlarına dair mətbuata açıqlama verib.

"Müzakirə səmimi və məhsuldar oldu, biz bütün məsələləri nəzərdən keçirdik. Bizim humanitar məsələlər, o cümlədən minaların təmizlənməsi və saxlanılanların azad edilməsi ilə bağlı səylərlə əlaqədar ətraflı müzakirəmiz oldu və biz itkin düşmüş insanların taleyinə də toxunduq", – deyə o bildirib.

Şarl Mişel daha sonra əldə olunan ilkin nəticələri diqqətə çatdırıb: "Sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası dövlətlərarası sərhəddə yaxın günlərdə baş tutacaq. Bu iclasda sərhədin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı bütün məsələlərə toxunulacaq.

Kommunikasiya ilə əlaqədar liderlər nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurəti üzərində razılığa gəldilər. Onlar Azərbaycanın qərb hissəsi ilə Naxçıvan və Azərbaycan ərazisindən Ermənistanın müxtəlif hissələri arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəldilər. Onlar xüsusilə beynəlxalq daşımalar kontekstində sərhəd idarəetmə prinsipləri, təhlükəsizlik, eləcə də gömrük rüsumları və qaydaları barədə razılığa gəliblər və yaxın günlərdə Baş nazirlərin müavinləri bu işi davam etdirəcəklər.

Sülh sazişinə gəlincə, liderlər Ermənistan ilə Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirəni davam etdirmək barədə razılığa gəliblər. Yaxın həftələrdə xarici işlər nazirlərinin başçılıq etdikləri nümayəndə heyətləri bu prosesi davam etdirəcəklər.

Bunun davamı olaraq, mən hər iki liderə müraciətlə vurğuladım ki, zənnimcə, Qarabağdakı etnik erməni əhalinin hüquqları və təhlükəsizliyi məsələsinin həll olunması vacibdir... Mən, həmçinin əhalinin uzunmüddətli davamlı sülhə hazırlanmasının vacibliyini də vurğuladım və Avropa İttifaqı öz dəstəyini gücləndirməyə hazırdır".

Avropa İttifaqı Şurasının Prezidenti tərəflərin sıx təmasda qalmağa razılaşdığını və iyul-avqust aylarına qədər eyni formatda yenidən görüşəcəklərini deyib.

# Türk dünyası mədəniyyətinin birgə təbliği

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Bakıda səfərdə olan TÜRKSOY-un Baş katibi Sultan Raevlə görüşüb.

Görüşdə iki qardaş təşkilat arasında mövcud tərəfdaşlığın daha da genişlənməsi və Türk dünyasının zəngin mədəniyyətinin, tarixinin, irsinin təbliği yönündə birgə addımların atılması müzakirə olunub.

TÜRKSOY tərəfindən 2023-cü il üçün Şuşa şəhərinin "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsinin əhəmiyyəti nəzərə alınaraq, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə TÜRKSOY-un birgə əməkdaşlığı çərçivəsində keçirilə biləcək tədbirlər barədə fikir mübadiləsi aparılıb.

# "Şərqdə doğan ilk hürriyyət"

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində 28 May – Müstəqillik Gününə həsr olunmuş "Şərqdə doğan ilk hürriyyət" adlı tədbir keçirilib.



Əvvəlcə Dövlət himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova çıxış edərək Müstəqillik Gününün tarixi əhəmiyyətindən söz açıb. Muzeyin əməkdaşı Ümidə Hacıyeva 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, Cümhuriyyətin tariximizdə yeri barədə məruzə ilə çıxış edib.

Tədbir konsert proqramı ilə davam edib. G.Şaroyev adına 35 nömrəli onbirillik Musiqi məktəbinin direktoru Vəfa Həziyevanın rəhbərliyi ilə müəllim və şagird kollektivi müxtəlif musiqi nömrələri səsləndiriblər.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, xoreoqraf Afaq Hüseynovanın bədii rəhbərliyi altında Memarlıq və İnşaat Universiteti nəzdində fəaliyyət göstərən "Buta" rəqs qrupu da öz nömrələri ilə konsertə qoşulub.

Tədbirdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Azərbaycan Dillər Universitetinin tələbələri, muzey əməkdaşları iştirak ediblər.

# Yuğ teatrı Konyada "Min nəfəs, bir səs" festivalında

Azərbaycan Dövlət Yuğ Teatrı Türkiyənin Konya şəhərində 20-30 may tarixində keçirilən 14-cü "Min nəfəs, bir səs" Beynəlxalq Teatr Festivalında iştirak edir.



Sənət ocağı festivala "Kloun Z" tamaşası ilə gedib. Matey Vişnekin "Qoca kloun tələb olunur" pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Mikayıl Mikayılov, quruluşçu rəssamı Umay Həsənovadır. Səhnə əsərində Natəvan Qeybani (Sarı), Zümrüd Qasımova (Qırmızı) və Təranə Ocaqverdiyeva (Yaşıl) çıxış edirlər.

Festivalda Qazaxıstan, Kosovo, Qaqauziya (Moldova), eləcə də Hollandiyadan kollektivlər, İstanbul Dövlət Teatrı və Van Dövlət Teatrı da iştirak edir.

Yuğ teatrının "Kloun Z" tamaşası mayın 23-də Konya Dövlət Teatrının səhnəsində nümayiş olunub.

# Azərbaycan uzun illərdir İCESCO ilə uğurlu əməkdaşlıq edir

## "İstərdik ki, UNESCO nümayəndələri də azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları görsünlər"

Azərbaycan uzun illərdir İCESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirir. Torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğu, eləcə də 44 günlük müharibə dövründə İCESCO-nun ölkəmizin ədalətli mövqeyini davamlı dəstəklədiyinə görə təşkilata minnətdarıq.

Prezident İlham Əliyev bu sözləri mayın 20-də İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul edərkən deyib.

Dövlətimizin başçısı İCESCO-nun Baş direktorunun keçən il Ağdam və Füzuliyə, bu il isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfərindən məmnunluğunu bildirib, Salim bin Məhəmməd əl-Malikin Şuşada təşkil edilən beynəlxalq konfransda iştirakını yüksək qiymətləndirib.

"Biz istərdik ki, UNESCO-nun nümayəndələri də işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər" deyən İlham Əliyev bildirib ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, belə bir səfər gerçəkləşməyib.

Prezident qeyd edib ki, ermənilər tərəfindən ölkəmizə vurulan maddi ziyanın qiymətləndirilməsində və bunun beynəlxalq ictimaiyyətə çatdırılmasında İCESCO-nun fəaliyyəti və onun ekspertlərinin iştirakı önəmli rol oynaya bilər.

Dövlətimizin başçısı Bakıda İCESCO-nun regional ofisinin yaradılmasının əməkdaşlığımızın genişləndirilməsi işində əhəmiyyətini qeyd edib, təşkilatın Azərbaycanın haqq



işinə göstərdiyi dostluq və tərəfdaşlıq dəstəyinə görə bir daha təşəkkürünü bildirib.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Salim bin Məhəmməd əl-Malik işğaldan azad edilmiş ərazilərə ötən il etdikləri səfəri xatırladaraq, həmin səfər zamanı gördükləri mənzərənin onları çox məyus etdiyini bildirib. Baş direktor budəfəki səfəri zamanı işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən böyük quruculuq işlərinin şahidi olduqlarını məmnunluqla qeyd edib. Bu yerlərin çox gözəl olduğunu vurğulayan qonaq artıq xarici ölkələrdən də çox sayda insanın buraya gəlmək istədiklərini deyib.

İCESCO rəhbəri görüşün sonunda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

# Mədəniyyət Nazirliyində Özbəkistan Baş nazirinin müavini ilə görüş

Mədəniyyət naziri Anar Kərimov mayın 23-də Özbəkistan Respublikası Baş nazirinin müavini, turizm və idman naziri Aziz Abduxakimov ilə görüşüb.

Görüşdə iki ölkə arasında mədəniyyət sahəsi üzrə əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb, birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib.

Anar Kərimov 2022-ci ildə Azərbaycan və Özbəkistanda təşkil olunan festivallarda ölkələrimizin musiqi kollektivlərinin qarşılıqlı olaraq iştirak etməsini xüsusi vurğulayıb. 12-14 may tarixində Şuşada keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalında Özbəkistanın "Baxor" Dövlət Rəqs Ansamblının çıxışlarını yüksək qiymətləndirən nazir yaradıcı kollektivin bu sənət bayramında fəal iştirakına görə təşəkkürünü bildirib.



Səmimi qəbula və xoş sözlərə görə nazirə minnətdarlıq edən Aziz Abduxakimov bildirib ki, iki ölkə arasında həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli əlaqələr əməkdaşlığın daha da genişləndirilməsinə imkan verir. Qonaq Şuşa şəhərinin 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi ilə əlaqədar keçiriləcək tədbirlərdə Özbəkistanın da əməkdaşlığa hazır olduğunu bildirib.

# Dünya şöhrətli bakılı musiqiçi doğma şəhərdə

Xəbər verdiyimiz kimi, əslən Bakıdan olan, hazırda Londonda yaşayan dünya şöhrətli skripka ifaçısı, dirijor Dmitri Sitkovetski bu günlərdə paytaxtımızda olub. Mədəniyyət Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə 15-20 may tarixində Bakıda "Dmitri Sitkovetski ilə görüşlər" adlı silsilə tədbirlər keçirilib.

Mayın 15-17-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Böyük zalında "Dmitri Sitkovetski ilə görüşlər" layihəsi çərçivəsində görkəmli sənətkarın ustad dərsləri olub. Ustad dərslərinə BMA-nın, Milli Konservatoriya nəzdində A.Zeynallı adına Musiqi Kollecinin tələbələri, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri qatılıblar.

D.Sitkovetski onlarla ifaçılıq sənətinin sirlərini bölüşüb, ifa zamanı texniki çətinliklərin necə aradan qaldırılması yollarını göstərib. O, həmçinin istənilən bəstəkarın fərdi yaradıcılıq üslubuna yaxından bələd olub, sonra öyrəndiklərini ifaya tətbiq etməyi tövsiyə edib.

Mayın 20-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Dmitri Sitkovetski ilə görüş keçirilib.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova məşhur musiqiçinin sənət yolu haqqında danışıb.



Sonra Dmitri Sitkovetski açıq mühazirə ilə çıxış edib. O, mühazirəsində dünyanın ən məşhur skripka ifaçıları, onların sənətdə olan əzəməti, mövqeyi haqqında qiymətli məlumatlar verib, nadir audioyazıları təqdim edib. D.Sitkovetski mühazirədən sonra iştirakçıların suallarını cavablandırıb.

Qeyd edək ki, Dmitri Sitkovetski Bakıda musiqiçi ailəsində anadan olub. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası nəzdində xüsusi istedadlar üçün açılmış məktəbdə ilk musiqi təhsili almış pianoçu, qocaman sənətkar Bella Davidoviç və skripka ifaçısı Yulian Sitkovetskinin oğludur.

# Şamaxı gələn il "Türk Dünyasının Turizm Paytaxtı" olacaq

Şamaxı şəhəri 2023-cü il üçün "Türk Dünyasının Turizm Paytaxtı" seçilib. Bu barədə qərar Türk Dövlətləri Təşkilatı (TDT) turizm nazirlərinin mayın 24-də Şamaxı şəhərində keçirilən 7-ci iclasında qəbul edilib.

Tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan və Macarıstanın turizm sahəsi üzrə rəhbər şəxsləri, həmçinin TDT-nin Baş katibi Bağdad Amreyev iştirak edib.

Toplantını giriş sözü ilə açan Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib ki, koronavirus (COVİD-19) pandemiyasının iki il sürən mənfi təsirindən sonra ölkəmizdə də turizm sektorunda bərpa prosesi başlayıb. Bu ilin 4 ayında ölkəyə gələn turistlərin sayı ötən ilin eyni dövrünə nisbətən 103 faiz artıb.

Ermənistanın uzun illər işğal altında saxladığı Azərbaycan torpaqlarında mədəni-tarixi abidələrin dağıldığını deyən DTA sədri bildirib ki, hazırda azad edilmiş ərazilərdə bərpa işləri ilə yanaşı bu ərazilərin turizm potensialı da araşdırılır. "Əminəm ki, Qarabağ tezliklə turistlərin




ən çox səfər edəcəyi destinasiya olacaq", - deyə F.Nağıyev vurğulayıb.

Qeyd edək ki, tədbirin gündəliyində təşkilata üzv və müşahidəçi dövlətlərin iri şəhərləri arasında birbaşa uçuş sayının artırılması, bilik və təcrübə mübadiləsi əsasında tarixi İpək Yolunun turizm potensialının istifadə edilməsi, "Müasir İpək Yolu Birgə Turu"nun və "Türk Dünyası Turizm Paytaxtı" layihələrinin həyata keçirilməsi, qış turizmi üzrə əməkdaşlığın genişləndirilməsi və digər məsələlər yer alıb. Həmçinin "Türk Dünyası Turizm Paytaxtı haqqında Əsasnamə"nin yekunlaşdırılması, "TDT-nin Turizm üzrə Yol Xəritəsi"nin tamamlanması və digər məsələlər nəzərdən keçirilib.

Bir gün öncə, mayın 23-də Şamaxıda TDT-nin Turizm üzrə İşçi Qrupunun 17-ci iclası keçirilib. İclasda BMT-nin Dünya Turizm Təşkilatı tərəfindən həyata keçirilən layihənin analoqu olaraq türk dövlətlərinin "Ən Yaxşı Turizm Kəndləri" təşəbbüsü, turizm əhəmiyyətli ortaq mədəni irs elementlərini özündə birləşdirən İpək Yolunun transmilli nominasiya üzrə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi üçün birgə müraciətin hazırlanması üzrə tərəfdaşlıqla bağlı da müzakirələr aparılıb.

# "Musiqili "Xəmsə" adlı bilik yarışı

Mayın 23-də Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində (MİM) "Şuşa İli" münasibətilə "Musiqili "Xəmsə" adlı bilik yarışması keçirilib.

Musiqi ədəbiyyatı fənni üzrə buraxılış sinifləri arasında keçirilən yarışmada 5 komanda birinci yer uğrunda mübarizə aparıb.

Beş raunddan ibarət yarışda tədbirin təşkilatçısı və aparıcısı, məktəbin nəzəriyyə ixtisası üzrə müəllimi, musiqişünas Pərvin Səfərli bəstəkarların yaradıcılığı haqqında maraqlı faktlar, əyləncəli suallar səsləndirib.

MİM-in direktoru, Əməkdar artist, dosent Əziz Qarayusifli və məktəbin tədris işləri üzrə direktor müavini Mənsurə Quliyeva komandaların cavablarını dəyərləndiriblər.

Bilik yarışında Rusiyada keçirilən "Var səsi ilə" ("Во весь голос") beynəlxalq musiqi müsabiqəsinin 2020-ci ildə diplomantı olmuş məktəbin estrada sənəti sinfinin şagirdi Lalə Qafarova gözəl ifası ilə iştirakçıları və tamaşaçıları sevindirib.

Qaliblər diplom və təşəkkürnamə ilə təltif ediliblər.

№39 (1912)
25 may 2022
www.medeniyyet.az



# Postmünaqişə dövründə humanitar gündəliyin mədəni tərəfi

## Şuşada keçirilən konfransın iştirakçıları beynəlxalq birliyi Azərbaycanın təşəbbüslərinə dəstək verməyə çağırıblar

əvvəli səh. 1-də

Diqqətə çatdırılıb ki, mədəni fəaliyyətlər eyni zamanda ölkədə turizmin inkişaf etməsinə böyük töhfə verir. Tarix və irs mədəni bərpanın əsasıdır. Məhz tarixi bilgilər əsasında ərazi haqqında geniş təsəvvür əldə edilir.

Günün ikinci, konfransın isə sayca dördüncü sessiyası "Yerli və regional icmalarda dayanıqlı həyat tərzinin dəstəklənməsi ilə ekosistemlərin qorunması" mövzusuna həsr olunub.

Plenar sessiyada İCESCO-nun "Dayanıqlı və ağıllı şəhərlər" layihəsinin koordinatoru Fuad əl-Ayni, BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatının mərkəzi Asiya üzrə subregional ofisinin eksperti Kaan Evren Başaran, biomüxtəliflik, qorunan ərazilər, vəhşi təbiətin mühafizəsi və digər ekoloji problemlər üzrə ekspert Hartmurt Müller, Biomüxtəliflik və ekosistem xidmətləri üzrə hökumətlərarası elm siyasəti platformasının (BEXHP/ İPBES) nümayəndəsi Rövşən Abbasov çıxış ediblər.

Natiqlər bildiriblər ki, "Ağıllı şəhər" konsepsiyası modern dünyada mühüm əhəmiyyətə malikdir və bu kimi şəhərlərin yaradılması, inkişafı insanların yaşam şəraitinə müsbət təsir göstərəcək. Eyni zamanda bununla bağlı müxtəlif təlimlər keçirilməlidir.

Diqqətə çatdırılıb ki, dünyada baş verən iqlim dəyişikliyi aclıq və digər resursların məhdudlaşmasına səbəb olur. Qarabağda ətraf mühitin yaşıllığı, havanın təmizliyi insanda pozitivlik yaradır və bu regionun yaşıllığı ətraf mühitə öz təsirini göstərir. Azərbaycanın gözəl, mükəmməl ərazi sistemi var. "Ağıllı kənd" layihəsinin həm ekosistem üçün, həm də modern texnologiyalardan istifadə üçün gözəl plan olduğu vurğulanıb.

Hər iki panelin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Beynəlxalq konfransın bağlanış tədbirində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli iki gün ərzində aparılan müzakirələrin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, postmünaqişə mövzusu bizi birgə düşünməyə vadar edir və müzakirə edilən məsələlər öz müsbət nəticəsini verəcək.



Tədbirin sonunda beynəlxalq konfrans iştirakçıları adından birgə müraciət oxunub.

"Azərbaycanın bu mühüm beynəlxalq konfransa Şuşada ev sahibliyi etmək təşəbbüsünü alqışlayırıq. Azərbaycan Hökuməti bütün region üçün uzunmüddətli sabitlik və dayanıqlı inkişaf üçün yeni imkanları nəzərdə tutan hərtərəfli və iddialı humanitar gündəm müəyyən etmişdir. Biz Azərbaycan Hökumətinin münaqişədən zərər çəkmiş Azərbaycanın mədəni, dini və təbii irsinin dirçəldilməsi və bərpasına, infrastrukturun yenidən qurulmasına yönəlmiş münaqişədən sonrakı davamlı humanitar səylərini yüksək qiymətləndiririk. Mədəniyyət münaqişələrdən sonra körpülərin qurulmasında, dialoq və əməkdaşlığın yaradılmasında universal alət kimi tanınır. Biz mədəniyyətlərarası dialoqun dayanıqlı sülhə töhfə verməsində müsbət rolunu vurğulayırıq. İnanırıq ki, beynəlxalq birlik mədəniyyət fəlsəfəsinin sülhün möhkəmlənməsinə töhfəsinin araşdırılmasını ehtiva edən Azərbaycan Hökumətinin BMT-nin Sivilizasiyalar Alyansı və İCESCO ilə birgə tərəfdaşlıqda elan etdiyi "Mədəniyyət naminə sülh" qlobal çağırışı kimi təşəbbüsləri dəstəkləyə bilər", – deyə müraciətdə vurğulanır.

Müraciətdə diqqətə çatdırılır ki, mədəni irsin bir parçası olmaq və ondan istifadə etmək hüququ insanların mədəni hüquqlarının tərkib elementini təşkil edir. Dün-



ya İnsan Hüquqları Bəyannaməsinin 27-ci maddəsində təsbit edildiyi kimi, hər kəsin cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək hüququ var: "Mədəni irsin qorunması bütün dünya xalqları üçün böyük əhəmiyyət kəsb edir və mənsubiyyətindən asılı olmayaraq, mədəni sərvətlərə vurulan hər hansı zərər, silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyasında da öz əksini tapdığı kimi, bütün bəşəriyyətin mədəni irsinə vurulan zərbə deməkdir. Buna görə də biz mədəni-dini obyekt və abidələrin mənşəyindən asılı olmayaraq hədəfə alınmasını və silahlı münaqişələr zamanı, xüsusən də işğal vəziyyətində onların məhv edilməsini qətiyyətlə pisləyirik.

BMT-nin 11 nömrəli Dayanıqlı İnkişaf Məqsədinə uyğun olaraq şəhərləri və insan məskənlərini inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı etmək üçün daha yaxşı ekoloji qayğıya və şəhərsalma planına ehtiyac olduğunu təsdiqləyirik. Bu kontekstdə işğaldan azad edilmiş ərazilərdə zəngin və müxtəlif ekosistemlərin qorunmasına da həssaslıqla yanaşan, dağıdılmış şəhər infrastrukturunun Azərbaycan Hökuməti tərəfindən əhəmiyyətli dərəcədə yenidən qurulmasını qeyd etmək lazımdır".

Müraciət bu sözlərlə bitir: "Beynəlxalq birliyə müraciət edərək, Azərbaycan Hökumətinin postmünaqişə dövründə infrastrukturun və dağıdılmış tarixi abidələrin bərpasına, mədəniyyətin və irsin dirçəldilməsinə yönəlmiş humanitar təşəbbüslərinə birmənalı və qəti dəstəyini verməyə çağırırıq. Bu kontekstdə biz beynəlxalq birliyin etimadın möhkəmləndirilməsi tədbirlərinə, mədəni-dini və təbii irsin canlandırılmasına və postmünaqişə dövründə uğurlu barışıq modellərinin təşviqinə yönəlmiş səylərə dəstək olmağa çağırırıq".

# TÜRKSOY Mədəniyyət Nazirliyinin reallaşdırdığı layihələrə dəstək verəcək

Mədəniyyət naziri Anar Kərimov mayın 21-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Baş katibi Sultan Raevlə görüşüb.



Nazir 19-20 may tarixlərində Şuşa şəhərində keçirilən "Postmünaqişə dövründə humanitar gündəliyin inkişaf etdirilməsi: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfransda iştirakına görə Sultan Raevə təşəkkürünü bildirib.

Türk xalqları arasında mədəni və dostluq münasibətlərinin möhkəmlənməsində TÜRKSOY-un rolunu vurğulayan Anar Kərimov əmin olduğunu bildirib ki, təşkilat bundan sonra da Türk dünyasının mənəvi və mədəni tərəqqisi üçün fəaliyyətini davam etdirəcək.

Şuşa şəhərinin TÜRKSOY tərəfindən 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsinin əhəmiyyətini vurğulayan nazir ölkəmizin təşəbbüskarı olduğu bir sıra beynəlxalq tədbirlərin Şuşada keçirilməsinin nəzərdə tutulduğunu deyib.

TÜRKSOY-un Baş katibi Sultan Raev beynəlxalq konfransa dəvətə görə nazirə təşəkkür edərək, Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa şəhərində tədbirlərin təşkilinin təqdirəlayiq olduğunu deyib. O, Azərbaycan Mədəniyyət Nazirliyinin reallaşdırdığı layihələrdə yaxından iştirak etməyə və dəstək verməyə hazır olduqlarını qeyd edib.

# Bəstəkar ömrünün səhifələri

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadənin 75 illiyi münasibətilə "Yaradıcılıq ömrünün səhifələri" adlı film hazırlanıb. Mayın 20-də ABİ-nin konfrans zalında filmin nümayişi oldu.

Tədbirdə çıxış edən Firəngiz Əlizadə diqqətə çatdırdı ki, filmdə yer alan kadrlar müxtəlif illərdə fərqli ölkələrdə lentə alınıb. Qeyd etdi ki, səfər və konsertlərinin lentə alınması ideyasını ona 1980-ci illərdə çağımızın görkəmli alim və yazıçısı, akademik Kamal Abdulla verib: "Bundan sonra həyat yoldaşım Cahangir həmin foto və video materialları toplamağa başladı. Bəlkə də 10 saatlıq material var...".

Xalq artisti bildirdi ki, filmi nümayiş etdirməkdə məqsəd gənc musiqiçilərimizi məlumatlandırmaqdır: "Hərdən deyilir ki, gənclərimiz arasında Azərbaycan musiqisinə maraq yoxdur. Bu qəbuledilməzdir. Azərbaycan sənətkarları dünya miqyasında tanınıb. Azərbaycan bəstəkarlıq məktəbi həmişə yüksək səviyyədə olub. Bu gün də yeni əsərlər yaranmaqdadır. Bütün bunlara diqqət yetirmək, qulaq asmaq və yüksək səviyyədə dinləyiciyə çatdırmaq lazımdır. Qoy gənclərimiz bunları bilsin və musiqiyə həvəs, maraq göstərsinlər".

ABİ-nin sədri onu da qeyd etdi ki, filmdə xüsusilə ABŞ, Avstriya, Almaniya, Estoniya, İngiltərə, Fransa kimi ölkələrin konsert salonlarında əsərlərinin ifasının lent yazıları yer alıb. Bu ölkələrin görkəmli bəstəkar və musiqiçiləri sənətkarın yaradıcılığı haqqında öz fikirlərini bildiriblər.

**S.Fərəcov**

# Milli Xalça Muzeyində "Danışan abidələr"

Mayın 20-də Milli Xalça Muzeyində "Danışan abidələr" adlı fotosərgi açılıb. Beynəlxalq Muzeylər Günü münasibətilə silsilə tədbirlər çərçivəsində təşkil olunan sərgidə Qarabağın ermənilər tərəfindən işğalı dövründə dağıdılmış muzey və tarixi-mədəni abidələrimizin fotoları nümayiş etdirilib.

Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova, Mədəniyyət Nazirliyinin Muzey, qalereya və sərgilər şöbəsi Muzey və daşınar mədəni irs sektorunun müdiri Altun Mikayıllı, "Yeni Gallery" Bakı İncəsənət Mərkəzinin direktoru Rafael Gülməmmədov, sənətşünas Elçin Şamilli, memar, sənətşünas Elçin Əliyev çıxış edərək tarixi abidələrin qorunmasının əhəmiyyətindən danışıblar.

Fotolardakı abidələr haqqında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə təhsil alan tələbələri məlumat veriblər.

Muzeydə həmçinin Əməkdar rəssam Yelena Haqverdiyevanın tekstil vitrajların hazırlanması, Əməkdar rəssam Taryer Bəşirovun çətən üzrə ustad dərsləri olub.

Muzeyin balaca dostları üçün isə "Şuşa İli" münasibətilə "Uçan xalça" marionet tamaşası göstərilib. Tamaşa muzeyin Uşaq şöbəsi və muzeyin nəzdində fəaliyyət göstərən "Uşaq birliyi"nin üzvləri tərəfindən ərsəyə gətirilib.



# Bakı ilk dəfə beynəlxalq piano festivalına ev sahibliyi edir



əvvəli səh. 1-də

Festivalın təşkilatçısı və bədii rəhbəri, Əməkdar artist Şahin Növrəsli piano bayramının ideyası haqqında danışaraq layihəyə dəstək olan təşkilatlara minnətdarlığını ifadə etdi: "Bu cür layihələr dünyanın çoxsaylı ölkələrində keçirilir. Buna görə də belə bir layihəni Vətənimizdə həyata keçirmək qərarına gəldim və mədəniyyət naziri cənab Anar Kərimova bu təkliflə müraciət etdim. O, bu fikri dəstəklədi və hazırlıq başlandı. İnanıram ki, bu mötəbər tədbir Azərbaycanın musiqi bayramına çevriləcək. Azərbaycan pianoçuları hər zaman bir sıra ölkələrin məşhur səhnələrində möhtəşəm konsertlər veriblər. Məmnunam ki, ilk piano festivalını təşkil etmək mümkün oldu".

## Əlamətdar sənət hadisəsi

Çıxışlardan sonra festivalın ilk konserti təqdim edildi. Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında dahi bəstəkar Fikrət Əmirovun "Azərbaycan kapriççiosu" əsəri səsləndirildi. Daha sonra fransız pianoçu Remi Jenyenin orkestrlə birlikdə L.Bethovenin "Fortepiano və orkestr üçün 5 nömrəli konsert"ini ifa etdi.

Konsertdən əvvəl müsahibə verən fransalı pianoçu Azərbaycanda ilk dəfə olmasından məmnunluğunu dilə gətirdi. Bakı səhnəsində, filarmoniyada çıxışını böyük məsuliyyət kimi dəyərləndirən pianoçu festivalın rəngarəng proqramından da söz açdı. O, bir sıra ölkələrdən musiqiçilərin bir-birini yaxından tanımasına vəsilə olan festivalı mühüm sənət hadisəsi kimi dəyərləndirdi.

Qeyd edək ki, I Bakı Beynəlxalq Piano Festivalında dünyanın bir sıra ölkələrindən virtuoz ifaçılar paytaxtımızın səhnəsində istedadlarını nümayiş etdirəcəklər. Festival çərçivəsində paytaxtımızın bir neçə konsert müəssisəsində 15-ə yaxın musiqi axşamı keçiriləcək. Həmin konsertlərdə ilk dəfə olaraq pianoda mümkün olan bütün janrların – caz, flamenko, tanqo, klassik və s. ifası planlaşdırılır.

## Tanqo, flamenko, caz və lirik türk musiqiləri...

Həmin gün festivalın ikinci konsert proqramı "Orange Groove"da təqdim olunub. Beynəlmiləl "Zinnetango" kvarteti tərəfindən təqdim olunan konsert maraqla qarşılanıb. Hərarətli tanqo tamaşaçıları biganə qoymayıb. Gecədə İlham Osmanov və Əlfiyyə Sultanova, Kamran Babayev və Nərgiz Osmanova, Aleksey Anpilov və Lenay Seydəlizadənin rəqs duetləri böyük maraqla qarşılanıb. Beynəlxalq kvartetə Argentina, Belçika və Estoniyadan musiqiçilər daxildir. Onlar köhnə tanqo ənənəsinə yeniliklər əlavə edərək uğurlu sintezə nail olublar.

Fesivalın ikinci günündə, mayın 21-də "Landmark"da "Los-Aurora" qrupu və Maks Villaveçianın ifasında musiqi və rəqslərdən ibarət konsert proqramı təqdim edilib.



"Los-Aurora" cəsarətli yenilikləri ilə milli və beynəlxalq musiqi səhnəsində inqilab edən flamenko caz qrupudur. Həmin gün pianoçu Maks Villaveçia ilə birlikdə səhnəyə müğənni Pere Martinez və sənət dostları çıxıb. Tamaşaçılar onların ifasından unudulmaz təəssürat qazanıblar.

Mayın 22-də isə yenə "Landmark" səhnəsində tanınmış qırğız pianoçu Vikram Ruzaxunovun caz konserti təqdim edildi. Mərkəzi Asiya regionunda cazın populyarlaşmasında mühüm rol oynamış V.Ruzaxunovun çıxışı tamaşaçılar və musiqi ictimaiyyəti tərəfindən maraqla qarşılandı.

Türkiyənin məşhur "Tanini" triosu və Güvənç Dağüstünün çıxışları da həmin günün yaddaqalan musiqi axşamlarından oldu. İştirakçılar türkiyəli qonaqların ifasında lirik musiqilərdən zövq aldılar.

## "Gənclərə dəstək" layihəsinin iştirakçıları səhnədə

Mayın 23-də festivalın daha bir konserti Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında gerçəkləşdi.

Aparıcı Tofiq Həsənsoyun piano festivalının təşkilatçıları və dəstəkçilərinə təşəkkür nitqindən sonra "Gənclərə dəstək" layihəsinin koordinatoru, musiqişünas Ayla Kərimova-Zəkəriyyə çıxış edərək layihənin məqsədi, ötən müddətdə həyata keçirilən tədbirlər barədə danışdı. Bildirildi ki, layihə çərçivəsində təqdim olunan proqramlar klassik musiqidən muğam, caz, xor və estradayadək müxtəlif zövqlərə malik çox geniş auditoriyaya ünvanlanıb.

I Beynəlxalq Piano Festivalının təşkilatçısı və bədii rəhbəri, Əməkdar artist Şahin Növrəsli çıxışında gənclərin piano ifaçılığına marağını yüksək qiymətləndirdi və gənc istedadların bu sahə üzrə beynəlxalq müsabiqələrdə uğurlarından söz açdı.

Daha sonra Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə (dirijor Valid Ağayev) "Gənclərə dəstək" layihəsinin iştirakçıları maraqlı konsert proqramı ilə çıxış etdilər. Bakı şəhər musiqi və incəsənət məktəblərinin şagirdləri Hüseyn Niftəliyev, Ömər Həsənli, Turan Cəfərzadə, Nil Mürsəlova, Humay İbrahimli, Rinat Şərifli, İnci Həsənli, Ümid İqan Əsgərli, Aylin Babayeva, Əli Vəliyev, Mirsəməd Növrəsli Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən ibarət müxtəlif janrları əhatə edən musiqi nömrələri təqdim etdilər.

Beləliklə, festivalın daha bir proqramı gənc ifaçılara öz ifaçılıq məharətlərini göstərmək üçün gözəl fürsət oldu.

Bakıda keçirilən I Beynəlxalq Piano Festivalı mayın 27-dək maraqlı proqramlarla musiqisevərlərin könlünü oxşayacaq.

**Lalə Azəri**

## Beynəlxalq konfransın iştirakçıları üçün Şuşada ekskursiya

19-20 may tarixlərində Şuşada keçirilən "Postmünaqişə dövründə humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfransın bağlanış tədbirindən sonra qonaqlar üçün şəhərə ekskursiya təşkil edilib.

Müxtəlif ölkələrdən gəlmiş nümayəndələr otuz ilə yaxın sürən işğal dövründə Şuşa şəhərinin məruz qaldığı dağıntıların, mədəni irs nümunələrinə qarşı erməni vandalizminin şahidi olublar. Qonaqlar Şuşanın tarixi məkanlarında, qala divarları önündə, Cıdır düzündə xatirə şəkilləri çəkdiriblər.

Şuşada beynəlxalq konfrans çərçivəsində mədəni proqram da təqdim olunub. Qonaqlar Azərbaycan xalq rəqsləri, muğam və xalq musiqisi nümunələrindən proqramı maraqla izləyiblər.

## Dövlət Xidməti ilə İCCROM arasında əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən "Postmünaqişə dövründə humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfransda Mədəni Mülkiyyətlərin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (İCCROM) Baş direktoru Ebber Ndoro da iştirak edib.



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli konfrans zamanı İCCROM-un rəhbəri ilə görüşüb.

Söhbət zamanı Dövlət Xidməti ilə İCCROM arasında əməkdaşlığın qurulması, mədəni irs nümunələrinin qorunması və bərpası sahəsində təcrübə mübadiləsinin aparılması, bu məqsədlə təlim və seminarların birgə təşkili ilə bağlı məsələlər müzakirə olunub.

## "EU4Culture" qrant müsabiqəsi çərçivəsində regional şəbəkə konfransı

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Şəki, Lənkəran və Xırdalan şəhərlərinin nümayəndələrinin iştirakı ilə 19-20 may tarixlərində Tbilisi şəhərində "EU4Culture" ("Avropa İttifaqı mədəniyyət naminə") qrant müsabiqəsi çərçivəsində I Regional şəbəkə konfransı keçirilib.

Tədbirə Avropa İttifaqının Qonşuluq siyasəti və genişləndirmə danışıqları üzrə Baş Direktorluğu, Avropa İttifaqının və Almaniyanın Höte İnstitutunun Gürcüstandakı nümayəndəlikəri, yerli ekspertlər, layihə komandası və tərəfdaşları (Höte İnstitutu, Danimarka Mədəniyyət İnstitutu, Çex Mərkəzi və Gürcüstan Fransız İnstitutu), o cümlədən media nümayəndələri qatılıblar.

Tədbir çərçivəsində müsabiqə üzrə qalib şəhərlərin təqdimatları, "EU4Culture" regional şəbəkə konsepsiyası, layihənin fəaliyyət istiqamətləri və maliyyələşmə imkanları, Gürcüstanın mədəniyyət və yaradıcı sənayelər üzrə dövlət-özəl tərəfdaşlıq modelləri ilə bağlı çıxışlar olub.

Şərq Tərəfdaşlığı regionu üzrə fəal donor təşkilatların mədəniyyət sahəsi üzrə mümkün maliyyələşmə proqramlarının təqdimatı və hər ölkə üçün siyasət quruculuğu və tənzimləyici mexanizmlərə dair təlim proqramı da təşkil olunub.

Qeyd edək ki, Avropa İttifaqının "Şərq Tərəfdaşlığı Mədəniyyət Proqramı" artıq bir neçə ildir icra olunur. Əməkdaşlığın növbəti mərhələsi kimi 2021-ci ilin iyun ayında proqramın əhatə etdiyi ölkələrin qeyri-paytaxt şəhərləri üçün "EU4Culture" ("Avropa İttifaqı Mədəniyyət naminə") qrant müsabiqəsi elan olunmuşdu. Müsabiqədə Azərbaycandan Lənkəran, Xırdalan, Şəki şəhərləri bir neçə mərhələni keçərək qaliblər sırasında yer alıblar.

## Türkiyənin bayramı Gəncədə qeyd olunub

Gəncə RMİ, Gəncə Şəhər İcra Hakimiyyəti, Türkiyənin Gəncədəki Baş Konsulluğu, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi və şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə Türkiyənin dövlət bayramı – Atatürkü Anma, Gənclik və İdman Günü (19 may) ilə bağlı tədbir keçirilib.

Xan bağında gerçəkləşən tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, millət vəkili Pərvin Kərimzadə, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Gürcüstanın Gəncədəki baş konsulu Nikolos İaşvili, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə qonaqlar Gəncə Uşaq rəssamlıq məktəbi yetirmələrinin rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirib, müxtəlif idman oyunlarına tamaşa ediblər.

Baş konsul Zeki Öztürk çıxışında Atatürkü Anma, Gənclik və İdman Gününün tarixindən danışıb. Qeyd edib ki, 19 may 1919-cu ildə Mustafa Kamal Atatürk bir qrup silahdaşı ilə İstanbuldan Samsuna gəlib və Qurtuluş savaşına başlayıb. Qurtuluş savaşı Türkiyənin Antanta dövlətləri tərəfindən işğalına son qoyulması və 1923-cü ildə Cümhuriyyətin qurulması ilə başa çatıb. Atatürk bu Zəfərə təməl olan 19 mayı bayram olaraq gənclərə ərməğan edib.

Tədbirin bədii hissəsində Gəncə şəhər Uşaq incəsənət məktəbinin "Xəmsə" nağaraçalan qrupu, "Gəncə qönçələri" rəqs ansamblı, Gəncə Dövlət Filarmoniyası "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblı solistlərinin bir-birindən maraqlı rəqs və musiqiləri tamaşaçıların zövqünü oxşayıb.

**Hazırladı: N.Məmmədli**

# Ölkəmizdə İCESCO-nun regional ofisi açılacaq

Mədəniyyət naziri Anar Kərimov mayın 20-də ölkəmizdə səfərdə olan İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.



Nazir qonağı salamlayaraq Şuşada keçirilən "Postmünaqişə dövründə humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzulu beynəlxalq konfransda iştirakına görə ona minnətdarlığını bildirib.

Salim bin Məhəmməd əl-Malik də öz növbəsində dəvət üçün mədəniyyət nazirinə təşəkkürünü bildirərək Azərbaycanla təşkilat arasında münasibətlərin davamlı olaraq inkişaf etdiyini, əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb.

Görüşdə İCESCO-nun İslam dünyasının birliyi və həmrəyliyinə verdiyi töhfələrin önəmi qeyd edilib. Anar Kərimov baş direktorun tarixi Zəfərimizdən sonra Qarabağ ərazisinə növbəti səfərini yüksək dəyərləndirdiyini nəzərə çatdırıb. Həmçinin Şuşanın 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsinin tarixi hadisə olduğu vurğulanıb.

Sonda Azərbaycan Respublikası Hökuməti ilə İCESCO arasında təşkilatın Bakı şəhərində regional ofisinin yerləşməsi haqqında saziş imzalanıb. Sənədi Azərbaycan Respublikası Hökuməti adından mədəniyyət naziri Anar Kərimov və İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik imzalayıblar.

Azərbaycanda İCESCO-nun regional ofisinin açılması təşkilatla üzv dövlətlər arasında əlaqələrin daha da dərinləşməsinə töhfə olmaqla yanaşı, qurum tərəfindən ölkəmizə göstərilən yüksək etimadın nümunəsidir.

Qeyd edək ki, Salim bin Məhəmməd əl-Malik Şuşada jurnalistlərə açıqlamasında İCESCO-nun regional ofisinin gələcəkdə ölkəmizin digər şəhərinə, o cümlədən Şuşaya köçürülməsinin mümkünlüyünü vurğulayıb.

1979-cu ildə yaradılan İCESCO-nun baş ofisi Mərakeşin paytaxtı Rabat şəhərində yerləşir.

# Unutmaz bu ellər qəhrəmanları...

Ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda edən qəhrəman Vətən övladlarının xatirəsi daim əziz tutulur, adları əbədiləşdirilir, ailələri ziyarət olunur.



Zaqatala rayonunun Lahıc kəndində Vətən müharibəsi şəhidi Vüsal Məmmədovun xatirəsinə inşa edilmiş abidə-bulağın açılışı olub. Vüsal Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub və doğulduğu Lahıc kəndində torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

***

Biləsuvar RMİ-nin rəisi Əlisultan Sadıxov Cəbrayıl rayon Mahmudlu kənd Uşaq musiqi məktəbində müəllim olaraq çalışmış Vətən müharibəsi şəhidi Zamin Rəhimovun ailəsini ziyarət edib.

***

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin M.Ə.Rəsulzadə adına kitabxana filialının əməkdaşları Vətən müharibəsi şəhidi Vüqar Manafovun ailəsinə baş çəkiblər.



Sumqayıt Poeziya evində Vətən müharibəsi şəhidi Vüsal Muradovun doğum gününə həsr edilən "Şəhidlik zirvəsinin 23 yaşlı fatehi" adlı ədəbi-bədii gecə keçirilib.

***



Vətən müharibəsi şəhidi İsmayıl Salmanovun doğum günündə xatirəsinə inşa edilən bulaq komplekslərinin açılışı olub. Şəhidin adını daşıyan bulaq kompleksləri Füzuli rayonu Beşinci Zobucuq qəsəbəsi və Alxanlı kəndində inşa edilib. Beşinci Zobucuq qəsəbəsindəki bulaq kompleksində İsmayıl Salmanovla yanaşı, Vətən müharibəsi şəhidi Elnur Cəfərov və 2016-cı ilin Aprel döyüşlərinin şəhidi Əlvan Hüseynovun da şəkilləri yer alıb.

İ.Salmanov Vətən müharibəsi başlayanda ilk döyüşə atılanlardan olub. Onun döyüş yolu Cəbrayıl, Xocavənd, Füzulidən keçib. Həmlə taborunda snayper olan İsmayıl düşmənin xeyli canlı qüvvəsini məhv edib. O, oktyabrın 24-də Füzuli rayonu ərazisində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb, rayonun Alxanlı kəndində torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda", Füzuli, Cəbrayıl və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.

# Yubiley, görüş, müsabiqə...

Gəncə RMİ Gəncə şəhər Heydər Əliyev Mərkəzi və şəhər MKS-nin 16 nömrəli kitabxana filialı görkəmli şair Molla Pənah Vaqifin (1717-1797) anadan olmasının 305 illiyi münasibətilə "Vaqif şeirimizin şah misrasıdır" mövzusunda ədəbi-bədii gecə keçirib. Tədbirdə Gəncə RMİ-nin məsləhətçisi Fərid Məmmədli, Gəncə şəhər Heydər Əliyev Mərkəzinin direktor əvəzi İlknur İsgəndərova və başqaları çıxış ediblər.




Gəncə şəhər MKS-nin 4 saylı filialı "İstiqlal şairi Əhməd Cavad" başlıqlı tədbir keçirib. Böyük kitabxanaçı Risalə Həsənova bu il anadan olmasının 130 illiyi qeyd olunan görkəmli şairin həyat və yaradıcılığı haqqında məlumat verib.

***

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin Nizami Gəncəvi adına kitabxana-klubunda Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyinə həsr olunan "Natəvanın lirik poeziyası" adlı ədəbi-bədii gecə keçirilib. Şəhər 24 nömrəli tam orta məktəbin şagirdləri şairənin qəzəllərindən nümunələr səsləndiriblər. Daha sonra onların ifasında Natəvanın Aleksandr Düma ilə şahmat oynadığı səhnə təqdim edilib.

Şuşa rayon Turşsu kənd Uşaq musiqi məktəbində dahi bəstəkar Üzeyir Hacıbəylinin yaradıcılığına həsr olunan "Üzeyir ömrü" adlı tədbir keçirilib. Tədbirdə bəstəkarın "Arşın mal alan" operettasından səhnəciklər nümayiş olunub. Şagirdlərdən ibarət xor kollektivi isə "Leyli və Məcnun" operasından "Şəbi-hicran" parçasını və "Əsgər marşı"nı ifa ediblər.

***

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında "Milli poeziyamızın Musa Yaqub zirvəsi" adlı tədbir keçirilib. Xalq şairi Musa Yaqubun (1937-2021) anadan olmasının 85 illiyi münasibətilə təşkil olunan tədbirdə şairin həyat və yaradıcılığı ilə bağlı videoçarx nümayiş etdirilib. Oxucular müəllifin şeirlərini səsləndiriblər.

***



Bərdə RMİ Bərdə rayon Mədəniyyət Mərkəzində Xurşidbanu Natəvanın 190 illik yubileyi münasibətilə "Mənim naşad olan könlüm" adlı ədəbi-bədii gecə keçirilib. Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova çıxış edərək Natəvanı Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarından biri kimi xarakterizə edib. Sonra Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrının hazırladığı İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" tamaşasından səhnə nümayiş etdirilib.

***

Kürdəmir RMİ Beyləqan Rayon Tarix-Diyarşünaslıq Muzeyində yazarlar Şərif Ağayar və Mübariz Örənlə görüş keçirilib. Tədbirdə çıxış edən RMİ-nin rəisi Faiq Xudanlı hər iki yazıçının müasir nəsrimizdə yeri barədə söhbət açıb.

***



İsmayıllı RMİ Qobustan rayon MKS-nin Mərkəzi Kitabxanasında böyük maarifpərvər şair Mirzə Ələkbər Sabirin (1862-1911) anadan olmasının 160 illiyinə həsr edilmiş "Dindirir əsr bizi..." adlı şeir qiraəti müsabiqəsi keçirilib. Leyla Qayıbova I, Lamiyə Baxışova II, Rəvanə Qayıbova isə III yerlərə layiq görülüblər.

***

Ağdaş RMİ Ağdaş rayon Mədəniyyət Mərkəzi və 3 saylı şəhər klubunun birgə təşkilatçılığı ilə 28 May – Müstəqillik Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Ağdaş şəhər və Ləki qəsəbə uşaq musiqi məktəblərinin müəllimlərinin ifasında vətənpərvər ruhlu musiqilər səsləndirilib.

***

Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov 12-14 may tarixində Şuşada keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalında uğurla iştirak etmiş N.Gəncəvi adına rayon Mədəniyyət Mərkəzinin "Halay" folklor kollektivinin üzvlərini qəbul edərək onlara təşəkkürnamələr təqdim edib.

***

Ağcabədi RMİ Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Qaradağlı kənd Mədəniyyət evi, MKS-nin Qaradağlı kənd kitabxanası və kənd Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə "Xurşidbanu Natəvan – 190" adlı tədbir keçirilib.

# Qubada ənənəvi yəhudi evi bərpa ediləcək

Quba rayonunda dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbədə ənənəvi yəhudi evi bərpa olunacaq. Layihəni Heydər Əliyev Fondunun dəstəyi ilə ABŞ-ın, İsrailin ölkəmizdəki səfirlikləri və Dağ Yəhudilərinin İrsi Mərkəzi həyata keçirəcək.

Mayın 23-də layihənin başlanması ilə əlaqədar mərasim təşkil olunub. Qəsəbədəki Dağ Yəhudiləri Muzeyinin qarşısında keçirilən tədbirdə Heydər Əliyev Fondunun departament direktoru, Milli Məclisin deputatı Soltan Məmmədov, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, ABŞ və İsrail səfirləri Örl Litzenberqer və Corc Dik çıxış ediblər.

Ziyəddin Əliyev çıxışında Qubanın tarixi, müasir inkişafı, burada yaşayan azsaylı xalqlar, rayondakı tolerantlıq mühiti haqqında söz açıb. Vurğulayıb ki, ölkəmizdəki multikulturalizm ənənələrinin bariz nümunələrindən birini bu qəsəbədə görmək olar.

Heydər Əliyev Fondunun departament direktoru, Milli Məclisin deputatı Soltan Məmmədov bildirib ki, bu gün Azərbaycan bütün regionda sülh, əməkdaşlıq, multikulturalizm dəyərlərini təbliğ edir. Heydər Əliyev Fondu yarandığı gündən Azərbaycanın tarixi, mədəniyyəti və milli dəyərlərinin dünyada təbliği ilə yanaşı, həm ölkəmizdə, həm də Azərbaycandan kənarda müxtəlif dinlərin qardaşlığı, xalqların dostluğu ilə




bağlı çoxsaylı layihələr həyata keçirib. S.Məmmədov qəsəbədə reallaşacaq layihənin əhəmiyyətini vurğulayaraq buranın gələcəkdə qonaqpərvərliyin bir nümunəsi kimi təqdim olunacağını deyib.

ABŞ səfiri Örl Litzenberqer Azərbaycanda mədəni müxtəlifliyin bariz nümunəsi olacaq və turistlərin diqqətini çəkəcək layihədə iştirak etməkdən məmnunluğunu ifadə edib: "Tolerantlıq sadəcə, bir-birimizin fərqliliklərini anlamaq deyil. Bu müxtəliflikləri qeyd etmək və bəşəriyyətin dəyərləri olan bu fərqlilikləri qucaqlamaqdır. Mən fəxr hissi duyuram ki, ABŞ və İsrail Azərbaycanın dostları kimi bu ölkənin zəngin tarixinə, əsrarəngiz təbiətinə, gözəl insanlarına dəstək olur. Heydər Əliyev Fonduna həm Azərbaycanda, həm də ölkədən kənarda gördüyü işlərə görə təşəkkür edirəm...".

İsrailin ölkəmizdəki səfiri Corc Dik qeyd edib ki, Qırmızı qəsəbə yəhudilərin və azərbaycanlıların birgə yaşadığı icmadır. Buradakı icmanın dünyada oxşarı yoxdur: "Burada yaşayan icma üzvləri istəyirlər ki, qəsəbəyə investisiyalar cəlb olunsun. Bütün bu işlərdə dəstəyini göstərən tərəfdaşlara təşəkkür edirəm...".

Tədbirin sonunda layihənin icrası ilə bağlı məlumat verilib. Qəsəbədə yüz ildən çox yaşı olan yəhudi evinin bərpasının məqsədi burada etnik və dini mədəniyyəti qorumaq, eyni zamanda, yeni turizm imkanları yaratmaqdır.

# Dünyanın bizdən daha yaxşı tanıdığı bəstəkar

## Firəngiz Əlizadə: “Tələbəlik illərimdə müəllimim Qara Qarayev atama deyəndə ki Firəngiz XXI əsrin musiqisini yazır, atam çox sevinmişdi, fəxr etmişdi...”

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti, professor, AMEA-nın müxbir üzvü, UNESCO-nun “Sülh artisti”, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə... Bu günə kimi onunla bir neçə müsahibəmiz olub. Hər biri öz rəsmiliyi və sırf yaradıcı mövzusu ilə yadda qalıb. Budəfəki söhbətimiz isə tam fərqli oldu.

May ayı onun həyatında xüsusilə əlamətdardır. Mayın 28-də 75 illiyini qeyd edəcək. Görüşümüz də məhz bu əlamətdar tarixə həsr edildiyindən iki saata yaxın zamanın necə keçdiyindən xəbərim olmadı. Musiqi sahəsinin problemləri, bugünkü vəziyyəti, eləcə də uzaq-yaxın unudulmaz illərə, gənclik dövrünə səyahət etdik...



### Sadəcə, bəstəkar Firəngiz Əlizadə...

Özünün də vurğuladığı kimi, xaricdə onu təqdim edəndə çoxsaylı titulları lazım olmur. Onun adı dünyanın böyük səhnələrindən, sadəcə, “bəstəkar Firəngiz Əlizadə” kimi elan edilir...

Görüşdüyümüz gün də növbəti əsərinin premyerası ilə bağlı çoxlu təbrik mesajları almışdı. Dünya şöhrətli bəstəkar, dahi Qara Qarayev məktəbinin layiqli davamçısı, virtuoz pianoçu, dirijor Firəngiz Əlizadənin çoxşaxəli yaradıcılığı XXI əsr Azərbaycan professional musiqisinin dünya sənət aləminə inteqrasiyasında mühüm rol oynayır. Onun musiqi mədəniyyətimiz adına gördüyü işlər, həyata keçirdiyi layihələrsə yüksək təqdirə layiqdir.

Sənətkarın növbəti belə dünya əhəmiyyətli layihəsi bu ilin aprel ayında Britaniya paytaxtında gerçəkləşib. Londonun möhtəşəm “Pool” konsert zalında Firəngiz Əlizadənin simfonik orkestr üçün “Nizami Cosmology” (“Nizami fəzası”) əsərinin premyerası keçirilib. Ukraynalı dirijor Kirill Karabitsin rəhbərliyi altında “Bournemouth Symphony Orchestra”nın (Böyük Britaniya) ifasında böyük triumfla keçərək tamaşaçıların rəğbətini qazanıb. Dahi Azərbaycan şairi və mütəfəkkirinin 880 illiyi münasibətilə, xüsusi olaraq bu məşhur kollektivin sifarişi ilə yazılmış əsər Nizami dühasını vəsf edən təntənəli himn kimi səslənib.

Bəstəkar bu əlamətdar hadisə haqqında deyir:

– 2017-ci ildə “Amsterdam Royal Concertgbouw”un sifarişi ilə bəstələnmiş “Nasimi Passion” (“Nəsimi ilahiləri”) əsərimdən sonra gördüm ki, doğrudan da, bizim nəhəng şəxsiyyətlərimiz təkcə şair deyillər, insanları yönəldən fikir, düşüncə sahibləridir. Onlarda poeziya, fəlsəfə, teologiya da var. XII əsrdə Nizami günəş və ulduzlar haqqında necə maraqlı fikirlər söyləyib. Hər dəfə oxuduqca bunlar mənə təsir edirdi. Hələ möhtərəm Prezidentimiz İlham Əliyevin “Nizami İli” ilə bağlı sərəncamı imzalanmamışdı və mən başladım bu əsəri yazmağa. Nizaminin fəza haqqında düşüncələri “İskəndərnamə”, “Leyli və Məcnun” və digər əsərlərində yer alır. “Nasimi Passion”dan fərqli olaraq bu əsərdə söz yoxdur. Nizaminin dahiyanə ideyaları, dünyaya baxışı və insanlara münasibətini öz yanaşmamla bu əsərdə çatdırmaq istədim. 2020-ci ildə əsəri başladım və 2021-də hazır idi. Pandemiya səbəbindən əsərin premyerası 3-4 dəfə təxirə salındı. Nə qədər ki premyera olmayıb, sanki əsər hələ bitməyib və daima onun haqqında düşünürsən. Elə bu səbəbdən məndə belə bir ideya yarandı ki, əsərdə təkcə simfonik musiqi deyil, oraya elektron səslər də əlavə olunsun. Sifarişçilər əvvəl çox çətindir desələr də, mən premyeraya hazırlığa gedəndə çox gözəl davranaraq çevik şəkildə bu məsələni həll etdilər. Premyera çox gözəl keçdi. İkinci gün isə əsər universitet şəhərciyi olan Exeterdə təkrar olaraq gənclər üçün səsləndirildi. Biz bir neçə gün orada diqqət mərkəzində olduq. Hər kəs əsəri maraq və rəğbətlə qarşılamışdı.

Firəngiz xanımın bu əsərinin premyerası ilə bağlı materiallarla tanış olanda, həqiqətən, çox maraqlı fikirlərlə qarşılaşdıq. Məsələn, bir informasiyada deyilir: “Qeyri-adi, novator partituralar. Publika müəllifi böyük coşqu ilə qarşıladı. Səmimi və dərin sənət hər zaman dinləyici qəlbinə yol tapa bilir...”.

Onu da qeyd edək ki, mart ayında Almaniyanın Maqdeburq şəhərində Firəngiz Əlizadənin simfonik orkestr üçün “Sommer-Eindruck” (“Yay təəssüratı”) əsərinin premyerası böyük triumfla keçib. Dirijor Mixael Horstun rəhbərliyi altında “Mitteldeutsche Philharmonie Orchestra”nın təqdim etdiyi konsertdə F.Mendelson, F.Şubert və D.Şostakoviçin əsərləri ilə yanaşı səslənən əsər pandemiya fasiləsindən sonra bu məşhur kollektivin yenilənmiş repertuarına daxil edilərək tamaşaçıların böyük marağına səbəb olub.

Beşinci ayını yaşadığımız 2022-ci il bəstəkar üçün məhsuldar başlayıb.

– Mənim bütün illərim yaradıcılıq baxımından məhsuldar olub. Pandemiya mədəni həyata zərbə vurdu. Mən bu fasilədən istifadə edib arxivimi qaydaya saldım, xaricdəki əsərlərim, orada yazılan məqalələri bir araya gətirə bildim. Məsələn, Qara Qarayevin 100 illik yubileyində (2018) biz bütün dünyada onun haqqında yazılan nə varsa – bir sətirlik cümlə də olsa – tapıb yubileyə həsr edilən kitab hazırlamalı idik. Çox axtarışlar apardıq. Çətin idi, nəhayət, bu işi ərsəyə gətirdik... Özümə gəlincə, Almaniyada haqqımda alman dilində kitab nəşr olunub. Bundan əlavə, 70 illiyimlə bağlı Türkiyədə kitab nəşr edilib. Bunlar arxivim üçün dəyərli materiallardır.

*– Türkiyə demişkən, Mersin şəhərində çalışmısınız, orada balet də yazmısınız...*

– Mersin şəhərində mənim baletim “Boş beşik”lə teatr açıldı. Orkestrovkanın hamısını özüm etmişdim. Həmin dövrdə bir səs və fortepiano var idi. Çox gözəl konsertlər vermişdik. Hələ o zaman, 1993-cü ildə barokko festivalı da keçirmişdik...

Əvvəldə demişdik axı, bu dəfə tam fərqli söhbət edirik: mərhələ-mərhələ, pillə-pillə. O danışır, mən isə bu söhbətdən çıxarışlar edirəm.

### Ailə

– Atam və anam indiki valideynlər kimi bizə təhsildə və yaradıcı yolda xüsusi bir dəstək göstərməyibər. Biz qazandığımız bütün nailiyyətlərə öz zəhmətimiz, alnımızın təri ilə nail olmuşuq. Atam Əliağa Əlizadə musiqini sevən insan idi. Müslüm Maqomayev Qori Müəllimlər Seminariyasını bitirəndən sona onu Lənkərana göndərirlər. Burada “Tarçalan oğlanlar” ansamblını yaradır. Atam həmin qrupun üzvü olub. O, Lənkəranın Kiçik bazar məhəlləsindən idi. Ulu babam azan oxuyan olub. Həmin dövrdə insanlar onun səsinə valeh imişlər. Atam sonradan Leninqradda (Sankt-Peterburq) ali təhsil almış, meliorator ixtisasına yiyələnmişdi. Çox mülayim insan idi. Biz heç vaxt onun ucadan səsini eşitmədik. Atam Şəkidə işləyərkən anam Nəzirə-Xədicə xanımla ailə qurur. Biz dörd uşaq idik və atamın işi ilə əlaqədar bütün çətinliklər anamın üzərinə düşürdü. Üç bacı, bir qardaşın məhəbbəti dərsə, ədəbiyyat, musiqi və sənətə idi. Anam bizə qarşı çox sərt idi. Dərsimizə ciddi yanaşırdı. Müəllimlərimiz anama qibtə edirdi. O, bizimlə birlikdə bütün notları, dərsləri öyrənirdi. Bizi başdan-ayağa öz tikdiyi, toxuduğu geyimlərlə bəzəyirdi. Həmişə maestro Niyazinin konsertlərinə yeni paltarda birinci cərgədə, əlimdə gül dəstəsi ilə gəlib oturardım və hamı elə düşünərdi ki, mən Niyazinin qızıyam. Böyük bacım Flora da bizə analıq edib. Nəzərini heç vaxt üstümüzdən çəkməyib, dərslərimizdə bizə yardımçı idi. Hazırda 82 yaşı var, bu gün də anamızı əvəz edir. İkiotaqlı evimizdə xoşbəxt yaşamışıq.



Hamımız məktəbi əla qiymətlərlə bitirmişik. Həm orta məktəbi, həm də konservatoriyanı qızıl medalla bitirdim. İlk musiqimi 7 yaşımda yazmışdım. Anam mahnını müəllimimə təqdim etdi və o, bu mahnını lövhədə yazdı. Bütün sinif mənim mahnımı oxudu və bu mənə çox təsir etmişdi. Həmin gün axşam süfrəsində düzgün tələffüz belə edə bilmədiyim qərarımı atama demişdim: “Mən kompozitor olacağam!”. Konservatoriyanın nəzdində orta ixtisas musiqi məktəbində təhsil aldığım zaman bəstəkar Ədilə Hüseynzadənin rəhbərlik etdiyi bəstəkarlıq dərnəyinə gedirdim. Ona valeh olmuşdum...

Elə həmin illərdə də böyük yaradıcılığa gedən yolun ilk addımları atılır. Ədilə Hüseynzadənin yanına getdiyi günü Firəngiz xanım belə xatırlayır:

– Həmin gün atam mənə dedi ki, bu gün sən ilk dəfə bəstəkarlıq dərsinə gedirsən. Bu günü yadında saxla. Sənin həyatının yeni dönəmi başlayır. İndi də o səs qulağımdadır. Sonrakı illərimdə isə atam həmişə mənə deyirdi səbirli və sakit ol. Tələbəlik illərimdə müəllimim Qara Qarayev atama deyəndə ki Firəngiz XXI əsrin musiqisini yazır, atam çox sevinmişdi, fəxr etmişdi. Onların çox gözəl münasibəti var idi və ildə bir-iki dəfə görüşürdülər... Həyatımın və yaradıcılığımın bütün mərhələlərində çalışdım ki, gördüyüm işlərin əsaslı olduğunu sübut edə bilim. Bəstəkarlıq fəaliyyətimdə çətin anlar da yaşamışam. Maddi cəhətdən sıxıntı çəkdiyim anlar da olub. Həyat yoldaşım Cahangir kinostudiyada rejissor kimi çalışırdı. O zaman kinostudiya da bağlandı... Yeri gəlmişkən, 75 illik yubileyimlə bağlı film hazırlanıb. Filmdə keçdiyim bu keşməkeşli sənət yolum əks olunub. Hansı ölkəyə işləməyə getdimsə, ailəmlə birlikdə getdim. İlk dəfə Türkiyədən dəvət alanda Bakı Musiqi Akademiyasına gedərək burada, Bəstəkarlıq kafedrasında mənə iş verəcəksinizsə, mən o təklifi qəbul etməyim dedim. Nəticə də məlum... Bəstəkarlıqdan deyil, amma 22 il orada orkestrləşmə ixtisasından dərs demişəm.

### Tələbəlik

– Gözəl oxumuşuq. Mən pianoçu kimi imtahanı mərhum rektorumuz Cövdət Hacıyevin qarşısında vermişəm. Hər yarım il 45 dəqiqəlik konsert verirdik. O konsertlərdə Cövdət müəllim bütün tələbələrin hər birinin nəyə qadir olduğunu bilirdi. Biz çox yüksək səviyyəli təhsil almışdıq. Mən iki ixtisas – pianoçu və bəstəkarlıq fakültəsində təhsil almışam. İlk müəllimim Cövdət Hacıyev idi.

Firəngiz xanım daha sonra müəlliminin məsləhəti ilə Qara Qarayevin sinfinə keçir. Dahi bəstəkar onun müasir musiqiyə həvəsini görür və bu yolda hər zaman dəstək olur.

*– 2007-ci ildə Firəngiz Əlizadə UNESCO-nun “Sülh artisti” (“Artist for Peace”) fəxri adına layiq görülüb. Respublikanın Xalq artisti, AMEA-nın müxbir üzvü, professor, “Şöhrət” və “Şərəf” ordenləri, habelə müxtəlif respublika və beynəlxalq təşkilatlar tərəfindən təqdim edilmiş mükafat və medallar – bütün bunlar bəstəkarın çoxşaxəli fəaliyyətinə verilən yüksək qiymətin bariz nümunələridir. Amma Bakı Musiqi Akademiyasının 100 illik yubiley tədbirlərində bu titullara sahib məzunun iştirakı sezilmədi nədənsə…*

– Bu sualı həmin silsilə tədbirlərin təşkilatçılarına ünvanlamaq yaxşı olardı. Çox yaxşı olardı ki, BMA-nın xaricdəki yubiley tədbirlərində bizim Azərbaycan bəstəkarlarının əsərləri, BMA məzunlarının əsərləri səslənərdi. Yəni biz dünyanı yalnız öz mədəniyyətimizlə təəccübləndirə bilərik...

### Türkiyə və Almaniya yolu

Yuxarıda qeyd etdiyimiz kimi, 1990-cı illərin əvvəllərində onun həyatının Türkiyə səhifəsi başlayır. Mersin Opera və Balet Teatrının açılışı münasibətilə Türkiyənin Mədəniyyət Nazirliyi Firəngiz xanıma balet yazmağı sifariş edir və ona birgə əməkdaşlıq üçün hazır müqavilə yollayır. 1993-cü ildə N.Cümələnin qələmə aldığı “Boş beşik” poemasının motivləri əsasında yazdığı ikipərdəli baletin ilk tamaşası olur. Bu teatrla uzun müddət əməkdaşlıq edən bəstəkar Mersin Konservatoriyasının yaradılmasında yaxından iştirak edir. Sənətkarın 50 illik yubileyində Mersin Valiliyi tərəfindən “Firəngiz Əlizadə günləri” adlı musiqi festivalı təşkil olunur.

Türkiyədən sonra Almaniyadan iş təklifi alan Firəngiz Əlizadə 12 il yaradıcılığını Berlin şəhəri ilə bağlayır. Almaniya İncəsənət Akademiyasında onun üçün hər cür şərait yaradılır.

Söhbətimiz zamanı deyir ki, Almaniyadakı ustad dərsləri bu gün də davam edir. O, həmçinin Sankt-Peterburqda keçirilən Andrey Petrov adına bəstəkarların beynəlxalq müsabiqəsinin münsiflər heyətinə sədrlik edir, eyni zamanda Beynəlxalq Ağa Xan Fondunun (“Aga Khan Foundation”) ekspertidir. Dəfələrlə fonddan iş təklifi alsa da, dəyərləndirməyib. Yəqin ki, yaxın gələcəkdə bu təkliflə bağlı qərar verəcək...

Ağa Xan Fondu Portuqaliya və Böyük Britaniya vətəndaşı olan Şah Kərim Hüseyn (Ağa Xan) tərəfindən təsis edilib. Fondun 20-dək ölkədə nümayəndəliyi fəaliyyət göstərir. Fond Firəngiz Əlizadə yaradıcılığını Şərq incəsənətinin mənəvi zənginliyi və yüksək intellektualizminin cəlbedici qüvvəsi kimi xarakterizə edir. 2019-cu ildə fondun rəhbəri 20-25 əsər dinləyir və “Nasimi Passion”un müəllifi ilə maraqlanır. Firəngiz Əlizadə və əsər haqqında ona məlumat verilir. Ağa Xan deyir mən çoxdan gözləyirdim ki, müsəlman dünyasında belə bir əsər ortaya gəlsin. Bu səbəbdən ilk dəfə fond tərəfindən bəstəkarlıq nominasiyası təsis edilir və Firəngiz xanım “Aga Khan Music Award – 2019” (creation) beynəlxalq musiqi mükafatına layiq görülür. Mükafat bəstəkara Portuqaliya Prezidenti Marselo Rebelo, fondun prezidenti Ağa Xan tərəfindən Lissabonda keçirilən təntənəli mərasimdə təqdim olunub.

Bu gün Firəngiz Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının sədri kimi çalışır ki, bu sahədə həm yaşlı, həm də gənc bəstəkarlar diqqətdən kənarda qalmasın. O, hələ 1979-cu ildə, gənc ikən ilk dəfə müəllimi Qara Qarayev tərəfindən namizədliyi irəli sürülərək ittifaqa katib seçilmişdi. Həmin dövrlərdə baş verən bəzi hadisələri də Firəngiz xanım bir az acı, bir az kövrək, bir qədər də özünəməxsus gülüşlə yada salır. Gənc bəstəkara qarşı o zamankı haqsızlıqlara incəqəlbli bir qadının tab gətirməsinin möhtəşəm sonluğunun bu gün şahidi oluruq. Xaricdəki konsertlərinə dəvət edilən həmkarlarının ona qarşı münasibəti, özünəməxsus “müsbət” təbrikləri onu bu yolda daha da mətin edib, irəliləməyə, böyük nailiyyətlər qazanmasına yol açıb. Rəhbərlik etdiyi qurumda gənclərə öz köməyini əsirgəməyən yubilyar plenum, konfrans və festivalların keçirilməsini ənənəyə çevirə bilib.

Söhbətimiz əsnasında Firəngiz xanım “Şuşa İli”ndə görüləcək işlərdən də söz açır. Deyir ki, Bəstəkarlar İttifaqı olaraq gənc bəstəkarların şanlı Zəfərimizə həsr etdikləri əsərlərin müsabiqəsini təşkil etdik. Altı əsər seçilərək Mədəniyyət Nazirliyinə təqdim olunub: “Amma hələ də bu əsərlər səsləndirilməyib. Düzü, bizim simfonik orkestrimiz olmadığı üçün bu əsərləri səsləndirmək imkanımız yoxdur. Biz bacardığımız qədər layihə və tədbirlər reallaşdırmağa çalışırıq...”.

Sonda isə diqqətə çatdırmaq istərdik ki, dünya şöhrətli bəstəkarımızın yubileyi təntənə ilə qeyd ediləcək. İyun ayında müxtəlif konsert salonlarında yubileyə həsr olunmuş musiqi festivalı çərçivəsində silsilə tədbirlər keçiriləcək. Musiqisevərləri bəstəkarın kamera və simfonik əsərləri, haqqında yazılan kitablar və bu günə kimi buraxılan kompakt disklərin təqdimatı, simfonik orkestr üçün “Nizami fəzası” əsərinin Bakı təqdimatı gözləyir. Bu tədbirlərə qatılanlar Firəngiz Əlizadənin füsunkar musiqisi ilə yanaşı, onun Azərbaycan bəstəkarlıq məktəbi üçün yazdığı yeni bir tarixin səhifəsini də vərəqləmiş olacaqlar...

Biz də “Mədəniyyət” qəzetinin kollektivi olaraq görkəmli bəstəkarımızı yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Lalə Azəri**

# Dövlət Uşaq Filarmoniyası 30 illiyini konsertlə qeyd edir




Bu il Azərbaycan Dövlət Uşaq Filarmoniyasının 30 illik yubileyi tamam olur. Mayın 25-də bu münasibətlə yubiley konserti keçiriləcək.

“Şuşa, biz gəldik” adlı konsertdə Dövlət Uşaq Filarmoniyasının “Şəms” uşaq xoru, vokal sinfi, “Musiqili uşaq teatrı”, müxtəlif yaş qruplarından ibarət rəqs kollektivi, “Sədəf” xalq çalğı alətləri ansamblı və solistlər rəngarəng musiqi nömrələri ilə çıxış edəcəklər. Bundan başqa, “Bacarıqlı əllər” rəsm dərnəyinin sərgisi də nümayiş olunacaq.

Proqramda Azərbaycan, rus və Avropa bəstəkarlarının əsərləri, eləcə də xalq mahnı və rəqsləri səslənəcək.

# “Mədəni gənclik” “Ölülər”i alqışladı

Gənclərin teatra marağını artırmaq, onlarda səhnə sənətlərinə sevgi yaratmaq üçün uğurla davam edən ”Mədəni gənclik” layihəsi iştirakçıları bu dəfə Akademik Milli Dram Teatrında olublar. Tələbələr mayın 20-də layihə çərçivəsində Cəlil Məmmədquluzadənin ”Ölülər” əsəri əsasında hazırlanan eyniadlı tamaşaya baxıblar.

Teatrın bədii rəhbəri və direktoru, Xalq artisti Azər Paşa Nemətovun quruluş verdiyi tamaşada görkəmli bəstəkar Qara Qarayevin vaxtilə bu səhnə əsəri üçün yazdığı musiqi yeni versiyada təqdim edilir. Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanan səhnə əsərinin elmi məsləhətçisi akademik İsa Həbibbəylidir.

Şeyx Nəsrullahı Xalq artisti Nurəddin Mehdixanlı, Kefli İsgəndəri Əməkdar artist Anar Heybətov oynayır. Digər rolları Xalq artistləri Laləzar Mustafayeva, Rafiq Əzimov, Hacı İsmayılov, Kazım Abdullayev, Sabir Məmmədov, Əli Nur, Əməkdar artistlər Aslan Şirin, Elşən Rüstəmov, Elxan Quliyev, Məzahir Cəlilov, Kazım Həsənquliyev, Mirzə Ağabəyli, Mətləb Abdullayev, aktyorlar Elçin Əfəndi, Ramin Şıxəliyev, Vüsal Mustafayev, Canəli Canəliyev, Elnur Qədirov, Rüstəm Rüstəmov, Xədicə Novruzlu, Ləman İmanova, Rada Nəsibova və Firuzə Balayeva məharətlə canlandırıblar.

Xronometrajı 130 dəqiqə olan səhnə əsərində rəsmlərin quruluşu Azər Paşa Nemətova məxsusdur.




Əsərdəki mənəvi əsarət, fanatizm və cəhalət böyük cəsarətlə aktyorların ifasında özünəməxsus çalarlarla açılır. Yaradıcı heyət Cəlil Məmmədquluzadə düşüncələrini yüksək məharətlə ifa edərək, mövhumat və cahilliyin poetik və dramatik lövhələrini təcəssüm etdirə bilirlər.

“Mədəni gənclik” layihəsinin iştirakçıları tamaşadan öncə Akademik Milli Dram Teatrının səhnə arxası ilə də tanış olublar. Gənclər, beləcə, tamaşa ilə yanaşı ümumən teatr prosesi barədə təəssürat əldə ediblər.

Onu da qeyd edək ki, mayın 24-də “Mədəni gənclik” layihəsinə Azərbaycan Dövlət Akademik Musiqili Teatrı ev sahibliyi edib. Tələbələr rejissor Samir Qulamovun quruluşunda “Paris Notr Dama ithaf” tamaşasına baxıblar. Layihənin davamı olaraq gənclər teatr mövsümünün sonunadək daha bir neçə səhnə nümunəsini izləyəcəklər.

№39 (1912)
25 may 2022
www.medeniyyet.az

# Əslində, azad olan bizik...




Xeyli yazdım, sonra pozdum. Bilmədim necə başlayım. Hisslərimi necə ifadə eləməyim o yana, hansı sözlə başlayacağımı da qoydum daş tərəziyə. Sonra bütün emosiya və dağınıq fikirlərimin əl-ayağını yığıb, özümə toxtaqlıq verdim: bu nədir, elə bil birinci dəfədir yazı yazırsan. Səfər təəssüratıdır da, hamı kimi sən də bir-iki foto paylaşıb, üç-dörd damcı da göz yaşı töküb toxtamısan...

Özümü sonuncu dəfə nə vaxt belə danladığım və bundan xoşbəxt olduğum yadıma gəlmədi. Axır ki, tapdım. Heç bir bədii təsvirə, bəlağətə ehtiyac yoxdur. Sadəcə yazacam, özü də nəyi necə hiss etdimsə...

Telefonumun mesaj blokunda "Şuşaya festivala birgünlük səfər... Şəxsiyyət vəsiqənizin surətini göndərin" yazısını görmək böyük səadət idi. Düzü, heç bir mesajı bu qədər gözləyib, bu qədər sevinməmişdim. Səfərə gedəcəyim gündən öncəki iki günü də əlavə etsək, buna ömrümün Şuşa günləri də demək olar. Çünki Şuşa xəyalımın bir addımlığında, mən isə ruhən onsuz da orada idim.

Paxıl adam deyiləm, amma Şuşaya gedib, oradan xoşbəxtlik saçan çöhrələri gördükcə, yazılan yazıları oxuduqca özümü onların yerinə qoyub keşkələri o qədər sadalamışam ki.

...Nəhayət, yola düşürük. Tanıyan-tanımayan hər kəs bir anın içində yüz ilin doğmasına çevrilir. Elə bil bir avtobus dolu qayğısız uşaq illər əvvəl olduğu kimi (çoxunun düşərgə xatirələrini bir də orada eşitdim) yay düşərgəsinə gedirik. Artıq yaşı 50-ni adlamış adamların Şuşa yolunda şuşalı xatirələrini dilləndirdikcə, hər detalı belə xırdalıqla xatırladıqca ötən bu illər ərzində nə qədər əzab çəkdikləri ilə indiki səadət və həyəcanlarını götür-qoy etdim. Yenə qazanclı onlar idi. Axı sevgili şəhəri məndən əvvəl görmüşdülər.

## Barmağıma batan tikan kimi

İşğaldan azad olunmuş ərazilərə, daha doğrusu, nəzarət-buraxılış məntəqəsinə çatanda avtobusdan düşdük. Yolun sağındakı boz torpaqda qızaran tək laləni qoparıb, bağrıma basdım. Sözün həqiqi mənasında, anasının sözünə qulaq asmayan uşaq ərköyünlüyü ilə (yol yoldaşlarımdan biri oralarda mina olar, yoldan qırağa çıxma desə də, mən çoxdan əlimi dalayan qanqallardan dadmışdım) özümü otluğa vurdum. Mənə qoşulan bir-iki yol yoldaşıma ləzzət ilə yediyim qanqalın dadı barədə dil tökdüm. Hətta onlardan birinin "Nə fərqi var, qanqaldı da. Bizim kənddə bundan daha böyük olurdu..." deməsinə acıqlandım da. Mənə görə Füzulidə, xarabaya dönmüş kəndin küskün, dağınıq damlarına, yurd yerlərinə gedən yolda bitən qanqal yediyim ən dadlısı di. Həm də barmağıma batan və hələ də orada qalan tikana rəğmən...

Bəlkə yolboyu sağımızda və solumuzda bağrı yarılmış insan kimi məğrur dayanmağa çalışan evlərin qalıqlarına, arabir dikələn inadkar divarlarına baxıb yanıb-yaxıldığımdan hisslərim korşalmış, ağrı hissim itmişdi. Amma izahı bu da deyildi. Xarabaya çevrilmiş evlərin binəsində pöhrələnən növ-növ meyvə ağacları, salxımlanmış söyüdləri sanki adamı səxavət və mehribanlıqla bağrına basmaq istəyirdi. O an mənə elə gəldi ki, yanından həsrətlə keçdiyimiz, yaxınlaşmağa ehtiyat etdiyimiz, düşmən tələsi mina ucbatından ayaq basmağa qorxduğumuz (hələ ki) həyətlərin xarabalıqları bizdən daha narahat, daha qəmgin, daha qəhərlidir.

Özümə söz vermişdim. Doğma elləri xarabaya döndərən düşməni lənətləmədən gedəcəkdim o yolu. Şuşaya, müqəddəs ziyarətə getdiyim üçün içimdə kin saxlamayacaqdım. Bağışla, Şuşa, amma bacarmadım. Füzulinin viran kəndlərinin, sakinləri ilə yanaşı xatirələrinin də pərən-pərən düşdüyü evlərinin yanından ötərkən içimdəki nifrət elə püskürdü ki, özümdən asılı olmayaraq, dilimdə lənət "bitdi"...

## Könlüm keçir Qarabağdan

...Yenidən həyat gələn, yenidən tikilən, yenidən bina edilən Füzulinin lövhələrini, daha sonra Xocavəndin işğaldan azad edilmiş kəndlərini geridə qoyub Şuşaya bir addım da yaxınlaşırıq.

Yolları irəlilədikcə, üzüyuxarı – Şuşa adlı zirvəyə qalxdıqca ənginliklərdə itib-batdım. "Bilmədim nə edim" ifadəsi burada özünün həqiqət möhürünü vurdu. Sözün bütün mənalarında təsvirləri gözümə təpirdim. Sıldırım qayalar, laləli düzlər, sıx meşələr, əlvan təpələr vəhşi düşmənin dağıtdığı yurd yerlərini gizlətməyə çalışsa da, onlar da öz həqiqətini deyirdi. Sahiblərinin yolunu gözləməkdən gözlərinə qan "daman" evlər, üzünü küləyə tutan eyvanlar, taybatay açılan bacalar, insan ayağına həsrətdən izi itən yollar, cığırlar hər maşın, insan səsinə diksinirmiş, sevinirmiş kimi bambaşqa idi.

Yolboyu qəhrəman Vətən oğullarının divarlarda həkk etdikləri müqəddəs izlər – "Şəhid, qisasın alındı!", "Biz gəldik!", "Qarabağ, azadlığın mübarək!", "Vətən, sən bizimsən!"... kimi şüarları, o igidlərin adlarını, bölükləri, el-obaları barədə qeydlərini oxuduqca dünya gözündə o yazını yazan əsgərin əli boyda olur. Ürəyin onun titrək barmaqlarına qoşulub, bu səadəti yaşadan minlərlə şəhidi, qazini Vətən daşına adbaad yazmaq, həkk etmək, qarşısında təzim etmək istəyir.

## Yasəmənlər açanda...

Şuşa lövhəsi göründü. Bayaqdan səs-səsə verən yol yoldaşlarım elə bil lal oldular. Aradan 2-3 dəqiqə keçmişdi ki, əllər dilləndi – əvvəl yanaqlardan süzülən yaşları, sonra hıçqırtının hənirindən tərləmiş şüşələri sildi, alınlar avtobusun aynalarına söykəndi. Ürəyində "səs salan" adamların "Şükür, artıq Şuşadayıq!" sözləri göy qurşağına dönüb, yağışdan sonra durulan səmada parıldayırmış kimi bərq vurdu.

Uzun yol gəlmiş yorulmaz adamlar bir-birinə aman verməyən uşaqlar sayağı avtobusdan tökülüb ətrafa dağıldılar. Mən də sevimli yasəmənlərimə tərəf.

Məncə, dünyanın ən gözəl, ən ətirli, ən zərif yasəmənləri məhz Şuşada açır. Məndən əvvəl səfər edən dostlarım "Axtarmağa ehtiyac yoxdu, Şuşada hər yer yasəməndir" demişdilər. Haqlı idilər. Yolboyu hər yerdə yasəmən çiçəkləri naz ilə gülümsəyirdi. Bağa bağbanından icazəsiz girən dəcəl uşaq kimi bir dəstə yığdım, bağrıma basdım. O ki var qoxuladım, nazladım, əzizlədim. İndiyə qədər fərqinə varmadığım "Xatırlayarsan məni" mahnısındakı "Yasəmənlər açanda" ilə başlayan misraları zümzümə etdim. Elə bildim şair nə vaxtsa bu mahnını məhz bu an üçün yazıb: Şuşa üçün, Şuşada açan, onun gözəlliyinin isbatına bəzək olan gülləri üçün.

## Xarıbülbül, incimə!

İndi gələk bizi buraya valeh və vaqif edən min bir səbəbdən birinə – Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalına. Mayın 14-də, festivalın son günündə qoynuna aldı bizi Şuşa.

Qarabağın incisi olan Şuşa özünə qayıdan müasir siması, Cıdır düzünü bəzəyən ecazkar muğamı ilə birgə müxtəlif xalqların musiqisinə qoşulub onun görüşünə gələn xeyli qonağa qucaq açmışdı.

Başdan-başa musiqi, tamaşa, sənət səhnəsini andıran şəhərin, demək olar ki, hər bucağında insanlar dolaşır, yaddaşına, ürəyinə, gözünə, könlünə Şuşanı həkk edirdi.

Cıdır düzündə, Vaqifin məqbərəsində, Aşağı və Yuxarı Gövhər ağa məscidlərinin həndəvərində, Şuşa qalasında, xan qızı Natəvanın evində, bulağında, eləcə də festival konsert və nümayişlərinin olduğu Cıdır düzündəki böyük səhnədə, şuşalıların Tut bağı kiçik səhnədə, dahi Üzeyir Hacıbəylinin Ev-Muzeyinin qalıqları arasında olarkən, məhəllələri dolaşarkən "dünyanın mərkəzi məhz Şuşadır" eyforiyalı təyin bir anda aksioma çevrildi mənim üçün...



Festivala fərqli ölkələrdən gələn ifaçıların Şuşanın ilahi musiqisinə qarışan sədasına qoşularkən, zəngin proqramlı konsertdəki çıxışları izlərkən Şuşada olduğum qısa zamanı bir də onu dinləmək üçün ayırmağa çalışdım.

## Divanə dərviş kimi

Kiçik səhnədəki konsertin tut bağını başına alan sədalarının müşayiətində hər notunda, hər ladında, hər melodiyasında ruhumuza aram verən, layla çalan, sənətinin əbədiyaşarlığına təzim elətdirən Üzeyir Hacıbəylinin Ev-Muzeyinin dağıntıları arasında tapdım özümü. Mamır basmış daşlar, indi-indi iz bilindirən cığırlar, doğmalarının nəfəsinə, ayaq səsinə, hənirtisinə indi-indi sevinən yollar, daşlar, divarlar, keçidlər elə gözəl idi ki.

Muzeyin sütunları, inadla, qürurla, məncə, həm də böyük ümidlə dağılmayan, tökülməyən sütunları arasında dayandım. Mənə elə gəldi ki, bax, məhz burada simfonik orkestr "Arazbarı"nı ifa edir, azca irəlidə, pilləkənlərin sağındakı tut ağacının altında muğam üçlüyü "Qarabağ şikəstəsi"ni oxuyur. Lap yuxarıdakı guşədə kimsə "Sevgili canan"ını səsləyir. Yer-göy lərzəyə gəlir, "Koroğlu" operasının uvertürası əzəmətini bir də buradan bəyan edir... Çərçivələri qalmış sınıq pəncərənin pərdələri küləyin tərkində havalanır və içəridən eynəkli kişi təbəssümlə pianonun dillərinə toxunur. "Sənsiz"ini sonuncu dəfə gözdən keçirir, not dəftərində nə isə düzəliş edib yenə zərif barmaqlarını şirmayı dillərə toxundurur...

Dağılmış pilləkənlərlə qalxıram. Əslində, ayaqlarım məni ora – yuxarı aparır. "İçəri girməyin, təhlükəlidir" sözlərinə diksindim. Ortayaşlı kişi "Sizi başa düşürəm, amma bir az ehtiyatlı olmaq lazımdır" deyib üzünü çevirdi. Sadəlövh uşaq kimi "Narahat olmayın, burada mina yoxdur, bayaqdan neçə yerdə ANAMA-nın qeydini görmüşəm" dedim. Nə cavabım, nə həyəcanım onun üçün maraqlı deyildi. O da bir çoxları kimi öz aləmində idi. Belə olmasaydı, mənim "Deyəsən, siz də səs-küydən qaçıb Şuşa ilə baş-başa qalmaq istəmisiz" sözlərimə "Hələ buna nail olmamışam" kimi mənə görə kobud, özünə görə səmimi cavab verməzdi.

Öz-özümə "Yaxşısı budur, baş alıb gedim" deyib aşağı məhəlləyə düşdüm. Bu dəm önümə çıxan əsgərlərin "Tək gəzməyin, itərsiniz" təlimatına da bir az əda ilə "Məncə, burada itmək dünyanın ən gözəl itməyidir" deyib daş döşəmələrlə aşağı endim. Sağ və solumdakı sahibini gözləyən evlər, açıq, daha doğrusu, sınmış şüşəbəndlər, kandarı paslanmış darvazalar, onların arxasındakı göz qamaşdıran yasəmənlər, təzəcə çiçəkləmiş heyva ağacları, gülünü tökmüş ərik, gilas budaqları adama "Gəl, qonağımız ol" deyirdi.

Şuşanı ev-ev, küçə-küçə, məhəllə-məhəllə gəzmək lazımdı, məncə. Ona qulaq asmaq, onun ağrılarını, sevincini duymaq üçün. Biz nə edirik, bəs? Gedib ona söykənib, onu özümüzə dayaq edib ağlayır, gileylənir, dərdləşirik, söz-sovumuzu deyirik. "Əl-ayağına" düşüb yalvar-yaxar edirik, başına, daşına, izinə dolanırıq. Onun bizə nə dediyini, darıxmağını necə izahını duymuruq, görmürük. Eləcə özümüzdən danışırıq, özümüzü dinlədib, özümüzü danışdırırıq.

Amma yox, Şuşa xoşbəxtdir, qürurludur, məmnundur. Axı, illər əvvəl qoynundan qoparılan balaları yenidən onun dizinin dibindədir. İndi Şuşada doğulan-doğulmayan, fərqli yoxdur, minlər, milyonlar şuşalıdır. Mənim kimi ömründə Şuşanı görməyənlər də elə bilir göbəyi burada kəsilib, gözü burada açılıb, dili burada söz tutub.

Özüm üçün izahını tapmamışam deyə sizə də açmasını verə bilmirəm. Amma mənə elə gəldi ki, Şuşanın sehri, sirri məhz cəzbetmə qüvvətindədir. O sirr ki, külli-ixtiyar da onun əlindədir. Bu təslim, bu tabeçilik dünyanın bütün azadlıqlarından gözəlmiş, vallah.

Düşünürəm ki, bu mənada "Şuşa, sən azadsan!" deyən hər kəs həm də özü azaddır. Daha doğrusu, azad şəhərdə azad olan, əslində, bizik.

## Səndən doymadım ki...

Xalqımızın ümummilli liderinin Şuşa haqqında məlum kövrək çıxışında bir cümlə var. "Şuşa Azərbaycanın gözüdür". Bəli, orada olduqdan sonra anladım ki, doğrudan da, bu, belədir. Əgər insanın dünya ilə rabitəsi gözüdürsə, Vətənimin də gözü Şuşadır.

Həm festival konsertlərini bir də Şuşadan izləmək, həm də 2019-cu ildə mənfur düşmənlərimizin Cıdır düzündə rəqs etməklə hamımızın sinəsinə çəkdiyi dağın əvəzini çıxmaq üçün üzü Topxana meşəsinə sarı qol qaldırdım, ağına-bozuna baxmadan, musiqinin ahənginə, tamaşaçıların fərqinə varmadan yorulub əldən düşüncəyədək oynadım. Oradakı onlarla şuşalıya, Şuşa qonağına, Şuşa sevdalısına qoşulub birlik və bərabərlik nümunəsi olan "Yallı"mızın sədaları altında dövrə vurdum.

Xoşbəxtlik qəhqəhələri musiqinin sədalarına qarışıb sıldırımlara səpələndikcə, batan günəşin şəfəqləri dağların arxasından yuxarı dırmaşdıqca, şiş qayaların ən son nöqtəsindəki parıltı gözlərimizi qamaşdırdıqca hisslər dəli atın tərkindəki çapara oxşayırdı. Apaydın səmada "Min şükür, ilahi!", "Sağ ol, əsgər qardaşım!", "Eşq olsun, müzəffər ordu!", "Şuşa, səni sevirəm!" sədaları cingildəyirdi.

Ürəkdən deyilən bu sözlərin heç birində "Görüşənədək" yox idi. Çünki heç kim getmək, onu tərk etmək istəmirdi. Odur ki, "Yola düşmək vaxtıdır" xəbərdarlığı nağılı yarımçıq kəsilmiş uşaq kimi hamını küsdürdü. Cıdır düzündən üzüaşağı könülsüz-könülsüz, büdrəyə-büdrəyə düşən qonaqlar hələ heç oradan çıxmamış, daşından doyub, torpağından ayrılmamış onun üçün darıxmağa başlamışdı.

## Şuşada axşamlar yanar ulduzlar

Saat səkkiz tamamdır. Biz Şuşanı tərk edirik. Arxamızda qalan şəhərə sarı boylana-boylana ona yenidən qovuşmaq üçün qarşıdakı zamanı adlamağa, günləri saymağa başlayırıq.

Şair necə demişdi? "Şuşada axşamlar yanar ulduzlar, Onlardan gözəldir gəlinlər, qızlar". Yox, vallah, mənə görə Şuşa onların hamısından gözləldi, zərifdi, məsumdu və safdı.

...Şuşa haqqında yazmaq böyük işdir. Onu təsvir, tarixinə, mədəniyyətinə, taleyinə, keçmişinə təşviq üçün gərək başqa bir ruh qatında olasan. Cari məsəllərdən arınıb, Şuşa ilə tək qalasan. Bu çoxluğun içində isə bu, elə də asan deyil.

Odur ki, mən də belə bəraət verim özümə: Əziz Şuşa, sənə qovuşdum, bağrıma basdım. Qaldı qulaq verib, qoynunda səni vəsf etmək. Qoy, bu cızmaqara "Qoynuna girməyə qalmışdır bir az, Könül fərəhlənib eylədi pərvaz, Ölməyib görəydim seyrini hər yaz, Səndə var özgə bir lətafət, Şuşa"nın qəlbimdə oxunan çoxillik nisgilli nəğməsinin nəqəratı olsun. Növbəti görüş günümüzü iplə çəkirəm...

**Həmidə Nizamiqızı**
**Bakı-Şuşa-Bakı**

# İstiqlal mübarizəmizin mühacir ədibi

*əvvəli səh. 1-də*

Erkən çağlardan yaradıcılığa maraq göstərən Mirzə Bala mətbuatda publisistik yazılarla çıxış edir, şeirləri işıq üzü görür. Orta məktəbi bitirdikdən sonra Bakı Politexnik Texnikumuna qəbul olunur. Həmin il Mirzə Balanın atası vəfat edir. Başsız qalan ailə maddi çətinliklə üzləşir. O, ailəni dolandırmaq üçün anasına kömək edir, hər çətinliyə qatlaşır. Eyni zamanda Bakıda müxtəlif ictimai-mədəni təşkilatlarla əlaqə qurur. Keçirilən toplantılarda fəal iştirak edir. Həmin tədbirlərin birində görkəmli dramaturq Cəfər Cabbarlı ilə qarşılaşır. Bu tanışlıq sonralar möhkəm əqidə dostluğuna çevrilir.

Məhəmməd Əmin Rəsulzadənin 1915-ci ildən nəşr olunan "Açıq söz" qəzetindən əməkdaşlıq təklifi alır. Dövri mətbuatla əlaqələrini genişləndirir, xüsusilə "Bəsirət" qəzetində publisist yazılarla müntəzəm çıxış edir. Şəhərdə müsəlmanlar arasında məzhəblə bağlı nifaq salmaq istəyənləri tənqid atəşinə tutur. C.Cabbarlı ilə birlikdə "İttifaqi-mütəllimin" və "Qafqaz Tələbələrinin Mərkəzi Komitəsi" təşkilatlarının qurulmasında və təşkilatın idarə olunmasında fəal iştirak edir. Onun yüksək fəallığı nəzərə alınaraq təşkilatların "Gənclər sədası" qəzetinin redaktoru təyin edilir.

M.B.Məhəmmədzadə 1918-ci ilin əvvəlində Tiflis şəhərinə gedir. Burada həftəlik, sonra isə ayda iki dəfə işıq üzü görən "Gənclər yurdu" jurnalını nəşr etdirir. O, Tiflisdə olarkən "İki inqilab arasında" kitabı çap olunur.

Tanınmış ziyalı və ictimai xadim Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını ürəkdən alqışlayır, yeni respublikanı istəməyən qüvvələri məqalələrində tənqid edirdi. M.B.Məhəmmədzadə 1918-ci ilin 7 dekabrında Cümhuriyyət parlamentinin açılışında C.Cabbarlı ilə birlikdə stenoqrafçı kimi fəaliyyət göstərmişdi. Professor Asif Rüstəmli araşdırmasında yazır: "Mirzə Bala AXC Parlamentində siyasi debatları izlədikcə, hər bir firqə nümayəndəsinin çıxışlarından süzülən mənanı, məkri, hiyləni duyduqca azad, müstəqil ölkənin özgə təsirləri, əsarəti altına düşmüş siyasətçisinin bədbəxt, mağmın halına acıyırdı. Müəllif həm ittihadçıların, həm də sosialistlərin demokratik cümhuriyyət quruluşu haqqında yanlış mövqedə olduğunu tənqid edirdi".

M.B.Məhəmmədzadə eyni zamanda Cümhuriyyətin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin yayın müdiri kimi o illərdə hərtərəfli siyasi fəaliyyət göstərmişdi. 1919-cu il sentyabrın 17-də Mirzə Balanın "Bakı uğrunda mübarizə" pyesi Azərbaycan Dövlət Teatrı tərəfindən tamaşaya qoyulmuşdu.

Azərbaycan 28 aprel 1920-ci ildə bolşevik Rusiyası tərəfindən işğal edilir. Mənən ruhdan düşən, sarsılan yazıçı bir müddət işsiz qalır. Sonra Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçilik, Bakının müxtəlif məktəblərində müəllimlik edir. Dövri mətbuatla da əlaqəsini kəsmir. "Yeni yıldız" jurnalında Azərbaycan tarixinə dair silsilə məqalələr dərc etdirir. 1922-ci ildə "Azərbaycan türk mətbuatı" adlı kitabı işıq üzü görür.

Həmin ərəfədə xalqların milli-mənəvi dəyərlərinə qənim kəsilən bolşeviklər milli düşüncə tərəfdarlarının təqibinə başlayırlar. Şübhəli görsənən hər kəs həbs edilir. 1923-cü ildə "İstiqlal" qəzetinin mətbəə işçiləri və redaksiya heyəti də saxlanılır. Vəziyyəti belə görən Mirzə Bala 1924-cü ilin mayında Cənubi Azərbaycanın Ənzəli şəhərinə gedir. Sovet kəşfiyyatı onu təqib edir. Bundan xəbər tutan Mirzə Bala bir müddət Tehran, Təbriz və Sulduz şəhərlərində gizli fəaliyyət göstərir. Kəskin məqalələrlə "Yeni Qafqasiya" jurnalında çıxış edir. O, 1927-ci ildə İranı tərk edərək İstanbula gedir. Burada M.Ə.Rəsulzadənin yaxın silahdaşına çevrilərək "Azəri-türk", "Odlu yurd", "Azərbaycan yurd bilgisi" jurnallarında sovet siyasətini tənqid edən yazılar dərc etdirir. Sənədlərini İstanbul Universitetinin Hüquq fakültəsinə verir. Eyni zamanda Azərbaycan mühacirlərinin nəşriyyat işinə rəhbərlik edir. M.Ə.Rəsulzadənin 1930-cu il avqustun 7-də nəşr etdirdiyi həftəlik "Bildiriş" qəzetində yazılar çap etdirir. SSRİ-yə qarşı Türkiyədə mübarizə aparılması qadağan edilən sövdələşməyə əsasən, 1931-ci ildə Rəsulzadə Türkiyəni tərk edir. Buna görə də qəzetin redaktorluğu ona həvalə olunur. Ancaq onun da redaktorluğu uzun çəkmir. Qəzet bağlanır və o da İstanbulu tərk edir...

M.B.Məhəmmədzadə uzun müddət Avropanın bir neçə şə-



hərində mühacirət həyatı yaşayır. Qəzet və jurnallara məqalələr göndərir. Varşavada "Milli Azərbaycan hərəkatı. Milli Azərbaycan "Müsavat" Xalq Firqəsinin tarixi" adlı əsərini yazır. Əsər 1938-ci ildə Berlində "Qurtuluş" jurnalının mətbəəsində çap olunur. II Dünya müharibəsi başlananda o, Varşavanı tərk edir və İstanbula qayıdır. Burada "Türk və İslam ensiklopediyası" redaksiyasında işə düzəlir. "Azərbaycan tarixində türk Albaniyası" adlı (1951) əsərini qələmə alır. 1954-cü ildə yenidən Almaniyaya qayıdan M.B.Məhəmmədzadə 1959-cu ilədək Almaniyanın Münxen şəhərində ABŞ-ın yaratdığı SSRİ-ni öyrənmə institutunda Qafqaz bölməsinin müdiri vəzifəsində işləyir. Eyni zamanda institut tərəfindən nəşr olunan "Azərbaycan dili" adlı siyasi jurnalın redaktoru olur. İnstitutda iki il elmi şuranın sədri, iki il də sədr müavini vəzifəsini icra edir. Seminar və konfranslar keçirərək kommunist ideologiyasının SSRİ məkanında törətdiyi cinayətlər haqda dünya ictimaiyyətinə məlumat verir.

Onun "Proletar ədəbiyyatı milliyyətçi ədəbiyyatın vahid cəbhəsi qarşısında", "Ədəbi hakimiyyət qovğası", "Azəri-türk ədəbiyyatının dünəni və bu günü", "Müasir Azərbaycan şairləri", "Romantik və realist cərəyanların mücadiləsi", "Milli dil və milli kültür", "Cəfər Cabbarlı", "Mirzə Ələkbər Sabir", "Sovet dil siyasətinin bugünkü səhifəsi", "Dədə Qorqud", "Milli dastanlarımıza dair" və s. məqalələrində ədəbiyyatımızın dünəni və bu günü ilə bağlı fikirləri diqqət çəkir.

Ömrü mühacirətdə keçən, tariximizdə və qəlbimizdə milli mübariz kimi heykəlləşən Mirzə Bala Məhəmmədzadə 8 mart 1959-cu ildə İstanbulda vəfat edib, Qaracaəhməd məzarlığında dəfn olunub.

**Savalan Fərəcov**

# “Azərbaycanım” festivalı çərçivəsində müsabiqənin sərgiləri açılıb

Xəbər verdiyimiz kimi, “Azərbaycanım” V Respublika Uşaq Rəsm Festivalı çərçivəsində elan olunmuş müsabiqə başa çatıb.

Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı və Naxçıvan Rəssamlar Birliyinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilən ənənəvi müsabiqə “Şuşa İli”nə töhfə olaraq elan olunub.

Sayca beşinci müsabiqə ötən illərdə olduğu kimi, üç yaş kateqoriyası (11 yaşa qədər, 11-16 və 16-21 yaş) üzrə keçirilib və hər kateqoriya üzrə ayrıca sərgilər təşkil edilib.

Müsabiqəyə seçilmiş əsərlər 18-21 may tarixində keçirilən Xətai Sənət Mərkəzində nümayiş olunub.

Qeyd edək ki, “Azərbaycanım” V Respublika Uşaq Rəsm Festivalı çərçivəsində müsabiqənin məqsədi uşaq, yeniyetmə və gənclərin yaradıcılığını stimullaşdırmaq, bədii zövqünü inkişaf etdirmək, Azərbaycan xalqının mədəniyyətini, şanlı Azərbaycan əsgərinin qəhrəmanlığını, işğaldan azad olunmuş ərazilərin mədəni irsini təbliğ etməkdir.



Yekun sərgilərdə Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov, layihəyə dəstək verən qurumların təmsilçiləri çıxış edərək ürək sözlərini balaca rəssamlarla bölüşüblər. Sərgiləri Xətai Sənət Mərkəzinin sosial media hesabları, həmçinin Azərbaycan Dövlət Rəsm Qalereyası sosial media hesabları və internet saytı (www.azgallery.az) vasitəsilə də izləmək mümkündür.

Hər yaş qrupu üzrə ən yaxşı 10 rəsmin müəllifi festivala dəvət olunacaq. Festival 27-28 may tarixlərində Xətai Sənət Mərkəzində keçiriləcək. İştirakçıları diplom və hədiyyələrlə mükafatlandırılacaq.

# Dram ilə faciə arasında fərqi axtara-axtara...



Paytaxt teatrları, onların üslubu, repertuarı, yaxşı tanıdığımız truppaları, potensialına bələd olduğumuz rejissorlarının işini, sözsüz ki, davamlı izləyib fikirlərimizi bölüşürük. Amma paytaxtdan kənarda fəaliyyət göstərən teatr müəssisələri ilə bağlı bunu ürəklə demək elə də asan deyil. Səbəblərdən biri də teatrları bir araya gətirən qastrol, festival və səfərlərin azlığıdır. Bütün bunları nəzərə alaraq, Gəncə Dövlət Dram Teatrının mayın 19-20-də Bakıda tamaşa nümayişi xəbərinə ürəkdən sevindim...

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində nümayiş olunan ikihissəli “Cavad xan” tamaşası seyrçi sarıdan qıtlıq çəkmədi. Qocaman Gəncə teatrı həvəskarları, əsas etibarilə də gəncəlilər sevdikləri Cavad xanın (1748-1804) – Gəncə xanlığının sonuncu hökmdarının gerçək şöhrətinin işığına həvəslə toplaşmışdılar. Tarixi dram pərdələr açılandan artıq özü haqqında ilkin rəyi ifadə etdi: biz sırf klassik dram görəcəyik.

Yazıçı-dramaturq Nüşabə Əsəd Məmmədlinin eyniadlı əsəri əsasında səhnələşdirilən tamaşaya Əməkdar incəsənət xadimi Əsgər Əsgərov quruluş verib. Dəvətli rejissorla birlikdə rejissor kimi Elşad Əhmədov da əlindən gələni edib. Səhnə əsərinin quruluşçu rəssamı Mirzə Mehdi, musiqi tərtibatçısı Sevda Əliyeva, geyim üzrə rəssamı Leyla Əliyeva idi.

Tarixi həqiqətlərin bədii təxəyyüldə fərqli mübadilə olunduğu tamaşada Cavad xan rolunu Əməkdar artist Elxan Yunis, onun həyat yoldaşı Mələknisə xanım rolunu isə Xalq artisti Pərvanə Qurbanova oynayırdı. Digər rolları Əməkdar artistlər İlham Hüseynov (Sisianov), Ramiz Vəliyev (İmperator), Novruz Cəfərov (Məmməd kişi), Salamulla İsmayılov (Axund), eləcə də aktyorlar Murad Meyfəliyev (Hüseynqulu ağa), Ruslan Hüseynov (Portnyagin), Günay Cabbarova (Aysel), Emil Salmanov (Orxan bəy), Sevinc Hüseynova (Gülqönçə), Akif Səfərov (Şair), Zəminə Cəfərova (Salatın) və başqaları ifa edirdilər.

Onu da deyim ki, ikinci-üçüncü dərəcəli rolları ifa edənlərin əksəriyyəti həvəskarlar – teatrın nəzdindəki “İkinci nəfəs” studiyasının yetirmələri idi. Amma peşəkar aktyorlarla həvəskarlar arasında fərq, demək olar ki, hiss olunmadı. Yaxşı hal kimi vurğulanmalı bu məqamı digər bölgə teatrlarına, əsasən də yeni nəsil aktyor və aktrisa sarıdan böhran yaşayan sənət ocaqlarına da tətbiq etmək olar. Deməli, qocaman, peşəkar yerli səhnə, sənət xadimlərini işə cəlb etməklə yararlı truppa formalaşdırmaq olar və dediyim kimi, Gəncə teatrının nümunəsində bu, elə də əlçatmaz arzu deyil. Daha çox sevindiyim məqam məhz həmin rollara dublyorların olması idi. Bu da deməyə əsas verir ki, tamaşa quran rejissorun aktyor sarıdan çətinliyi olmayacaq. Bu mənada “Cavad xan”ın gənc heyəti maraqlı, baxımlı, dinamik və rəngarəng oyunları ilə yadda qalmağı, daha doğrusu, peşəkar və titullu aktyorlarla yarışa biləcəklərini də göstərdilər.



Tarixi şəxsiyyətlərin və real hadisələrin əks olunduğu əsərlərə verilən quruluşlarda təsvir və onun plastik həlli zəruridir. Bu həm dinamikanı artırır, həm estetik baxımdan ümumi təsvirə ayrı bir özəllik qatır, həm də aktyorların plastikasını, nitq və oyun texnikaları ilə bərabər fiziki imkanlarını da qısa və təsirli nümayiş etdirir. Nədənsə, yaradıcı heyət buna elə də önəm verməmiş və bunun əvəzində Cavad xanın mütəmadi əlində saxladığı qılıncını, demək olar ki, əynindən çıxarmadığı zirehini, sadəcə, rekvizit kimi görmüşdü. Hərçənd həm Elxan Yunusun, həm də onun tərəf-müqabillərinin bunu ifadəli nümayiş etdirə biləcək fiziki imkanları vardı. Qısacası, bu ağır və mətn baxımından yüklü tamaşada təsvirçilikdən qaçmaq əvəzinə ona plastika da vermək uğurlu olardı.

***

Bu məqamda daha bir nüansa diqqət çəkmək istəyərdim. Tamaşa boyu müəllifin Cavad xana və onun yaşadığı dövrə böyük sevgi və ehtiramının şahidi olduq və düşünürəm ki, bu, çox normaldır. Pyesdə cərəyan edən hadisələr ümumən Gəncənin son müqavimətini – həmin ağır və qəhrəmanlıqla dolu dönəmi əhatə edir. Azadlıq amalı uğrunda gözünü qırpmadan övladlarından belə keçən qətiyyətli, əzmkar və mübariz Cavad xanın timsalında ümumən Gəncə və gəncəlilərin mətin obrazını, ümumiləşmiş portretini görə bilirik. Müəllifin psixoloji realizm üslubunda ərsəyə gətirdiyi əsərdə xalq olaraq başımıza gətirilən bəlaların fərqli və çox ağır detallar üzərindən analizi də var. Biz burada güclü, mübariz, vətənsevər kişi və qadın obrazlarını, xalqının, el-obasının azadlığı uğrunda həyat adlı şirin nemətdən gözüyumulu vaz keçən gəncliyin simasını sezirik. Səhnə əsərində qorxmaz və döyüşkən Cavad xan və ailəsi, ümumən gəncəlilərin timsalında pərən-pərən olunmasına, xanlıqlara bölünərək parçalanmasına rəğmən yenə də bir olmaq, mübarizə aparmaq istəyən xalqın ümumi ağrı və dərdləri də ön plana çıxır.

Bunlar öz yerində. Amma Cavad xan, onun mübarizəsi haqqında məlumatlı adamlar da bir çox suallar qarşısında qalmışdı. Ümumiyyətlə, tarixi dramı tamaşaya çevirmək istəyən rejissor və yaradıcı heyət müəllif qədər məsələyə mövzu və ideyaya həssas yanaşmalı, yalnız qarşısındakı mətndən asılı qalmamalıdır. Bu mənada düşünürəm ki, nə Cavad xan, nə onun həyat və döyüş yolu, nə də Gəncə və ətraf ərazilərin insanlarının halı-həyatı bu səhnə işində özünün tarixi və bədii izahını dolğun tapmayıb.

***

Gələk tamaşanın əvvəlindəki səhnələrə – kəndlərə hücum nəticəsində öldürülən yaxınlarını ağlayan sadə insanlara. Bizim xalq olaraq ağrını, kədəri, sevinci, təəssüfü ifadə üçün şüurumuza oturuşmuş təsvir formaları var. Burada kədərlə dözüm, bitkinlik və mübarizlik həmişə tarazlıqda olur. Bu təsvirdə isə biz gah hadisə yerinə gəlib ağır sarsıntısını ifadə edən Cavad xana sönük etiraz ilə güc nümayişini, gah da qadınlı-kişili ağlaşmanı gördük. Düzdür, burada nəticə olaraq oğlu ölmüş qadının ərinin silahına sarılması, onu Cavad xana verməsi də öz əksini tapır. Amma bu, ağlamalar fonunda sönük qalır. Yəni biz qiyaməti görsək də, qisas hissini sezə bilmirik.

Ümumiyyətlə, tamaşada qəribə bir təzada da köks ötürdük: göz yaşları, çarəsizlik, məğlubiyyətə fokuslanma əsas planda idi. Yəni ilk replikalardan biz tamaşaçı olaraq artıq hansı aqibətlə rastlaşacağımızı bilirdik. Rejissor nə aktyoruna, nə də tamaşaçısına hadisə, səbəb, nəticə və onun effekti ilə bağlı düşünməyə icazə vermir. Bu minvalla biz Cavad xan başda olmaqla heç bir obrazın daxili üsyanına və bəraət çırpıntısına şahid olmadıq. Hərçənd aktyorlar əsərdən və ümumən prototiplərindən irəli gələn formalaşmış təəssüratı bəzən təsirli, bəzən də yüklü pafosa qatıb tamaşaçıya ötürmək yarışında idilər. Dediyim kimi, tamaşaçıdan aktyora səhnə işinin ən sarsılmaz və yəqin həm də tək rabitəsi Cavad xan faktoru idi. Qalan bütün nəsnələr – quruluş həlli, tərtibat və aktyor oyunu onun arxasınca dolaşırdı.

Yəni biz müəllifin tarixi hadisələrlə təxəyyülü arasındakı keçidlərdə ayaqüstü dolaşdıq. Əslində, bunu quruluş həlli ilə tarazlamaq olardı. Amma rejissor məsələnin tam şəxsiyyət formulu üzərində dayanır və biz yalnız qəhrəmanların ayrı-ayrılıqda faciəsini görürük.



Klassik tamaşa – adı üstündə – sırf klassik həll istəyir. Bu həm tərtibata, musiqi həllinə, geyimə, mizanlara, həm də səhnələr arasındakı keçidlərə aiddir. Məsələn, İmperatorun sarayı ilə Cavad xanın imarəti, qırğına verilmiş kəndlilərlə xan sarayının qarovul dəstəsi, kəndin axundu ilə şairi, ümumiyyətlə, həllin musiqisi ilə tərtibatı arasında mütləq bir rabitə qurmalısan. O rabitə ki, biz səhnədə ansambl işi görək və ilk səhnədən kolorit, məişət, həyat tərzləri arasında təsəvvürümüzü qüvvətləndirər. Doğrudur, musiqi həllində, xüsusən şifahi xalq ədəbiyyatından seçmələrdə, bayatı və oxşamalarda bu tarazlıq saxlanılmağa çalışılmışdı. Amma burada da motivlə qəhrəmanlar, hadisələrin iştirakçıları arasında rabitəsizlik özünü göstərirdi. Ümumiyyətlə, dram ilə faciə arasında incə fərqi duymaq və mizana oturtmaq asan məsələ deyil.

Cavad xanın qonşu xanlıqlara müttəfiqlik və kömək üçün müraciəti, Sisianovun məktubuna vuruş ilə cavabı, ermənilərin xəyanətkarlığı, sadə azərbaycanlı qızı Gülqönçə və tamaşanın digər qadın obrazlarının qəhrəmanlığı, Gəncə xanının son nəfəsinədək apardığı mübarizə təsviri fakta əsaslandığından təsirli idi. Bəzi aktyor oyunlarındakı heç bir təsir yaratmayan pafos və oyun üzərində oyunu, dekorasiya və rekvizitlərdəki izafi təsvirçiliyi, xüsusən hərəkətli rekvizitlərin aktyorlarla “yola getməməsi”ni nəzərə almasaq, maraqlı tamaşaya baxdıq.

Düşünürəm ki, zəngin tarixi və əzəmətli yeni binası olan Gəncə Dövlət Dram Teatrının Bakı qastrolları da ənənəvi hal alacaq və biz daha yeni və maraqlı səhnə nümunələrini izləyəcəyik...

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 25-27 may

### Azərbaycan

**25 may 1936** – Bakı Soveti yanında Simfonik konsertlər idarəsinin bazasında Azərbaycan Dövlət Filarmoniyası yaradılıb. Filarmoniyanın yerləşdiyi bina 1912-ci ildə “İctimai toplantılar üçün yay binası” olaraq inşa edilmişdi. 1920-ci ildə təşkil edilən Azərbaycan Dövlət Simfonik Orkestri, digər musiqi kollektivləri burada çıxış edirdi və 1936-cı ildə filarmoniyada birləşdirildi. 1937-ci ildə bəstəkar Müslüm Maqomayevin vəfatından sonra Azərbaycan Dövlət Filarmoniyasına onun adı verildi.

**25 may 1991** – Xalq rəssamı Hüseyn Əlirza oğlu Əliyev (22.4.1911 – 1991) vəfat edib. “Kommunist” qəzetində (indiki “Xalq qəzeti”) rəssam işləyib. Əsasən qrafika ilə məşğul olub, mənzərə ustası kimi tanınıb.

**26 may 1877** – Maarifçi-alim Mirzə Məhəmmədəli Tərbiyət (1877 – 17.1.1940) Təbrizdə doğulub. Şəhərdə yeni tipli “Tərbiyət” mədrəsəsi və kitabxana açıb. Azərbaycan mədəniyyəti tarixini əhatə edən “Danişməndani-Azərbaycan” ensiklopedik toplusunun müəllifidir.

**26 may 1894** – Ədəbiyyatşünas, publisist Vəli Məmmədhüseyn oğlu Xuluflu (1894-1938) Şəmkir rayonunun Xuluflu kəndində doğulub. 20-ci illərdə Azərbaycanda latın qrafikalı əlifbanın tətbiqində aktiv fəaliyyət göstərib, Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru işləyib. “El aşıqları” toplusunu tərtib edib. Repressiya qurbanıdır.

**26 may 1914** – Xalq yazıçısı İlyas Məhəmməd oğlu Əfəndiyev (1914 – 3.10.1996) Füzuli şəhərində anadan olub. “Söyüdlü arx”, “Körpüsalanlar”, “Dağlar arxasında üç dost” və s. romanların, povest və hekayələrin, Azərbaycan dramaturgiyasında yeni mərhələ təşkil edən pyeslərin (“Atayevlər ailəsi”, “Sən həmişə mənimləsən”, “Mahnı dağlarda qaldı”, “Şeyx Xiyabani”, “Hökmdar və qızı” və s.) müəllifidir.

**26 may 1938** – Şair Adil Rəsul (1938-1997) Şamaxı şəhərində anadan olub. Şeirlərinə mahnılar (“Limanda”, “Gəl” və s.) bəstələnib.

**27 may 1906** – Xalq artisti, teatr rejissoru Soltan Baba oğlu Dadaşov (1906-1969) Bakıda anadan olub. Opera və Balet Teatrında quruluşçu rejissor işləyib, Aşqabad teatrında M.Maqomayevin “Şah İsmayıl” operasını tamaşaya qoyub.

**27 may 1906** – Yazıçı-dramaturq Şəmsəddin Bəhlul oğlu Abbasov (1906-1975) Xızı rayonunun Sayadlar kəndində doğulub. Opera və Balet Teatrının, Bakı Kinostudiyasının direktoru olub, kinossenarilər yazıb.

**27 may 1926** – Xalq şairi, nasir Söhrab Tahiri (Söhrab Əbülfəz oğlu Tahiri; 1926 – 4.5.2016) Cənubi Azərbaycanın Astara şəhərində doğulub. 1946-cı ildə sovet Azərbaycanına köçüb. Poemalar, roman və povestlər müəllifidir. Kitabları: “Vətənlə sevgi arasında”, “Qonşu qızın məktubları”, “Əmanət” və s.

**27 may 1956** – Xalq şairi Səməd Vurğun (Səməd Yusif oğlu Vəkilov; 21.3.1906 – 1956) vəfat edib. 20-dən çox poemanın, “Vaqif”, “Fərhad və Şirin” və s. mənzum dramların, dillər əzbəri olan şeirlərin müəllifidir. Azərbaycan Yazıçılar İttifaqının sədri (1941-1948) olub.

**27 may 1993** – Bakıda böyük şair-dramaturq Hüseyn Cavidin abidəsinin açılışı keçirilib. Hüseyn Cavid adına parkda ucaldılan abidənin müəllifi Xalq rəssamı, heykəltəraş Ömər Eldarovdur.

**27 may 2008** – Əməkdar incəsənət xadimi Elşad Heybət oğlu Quliyev (23.1.1941 – 2008) vəfat edib. 1983-1990-cı illərdə Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri işləyib.

### Dünya

**25 may 1803** – Amerika şairi, filosof Ralf Voldo Emerson (1803-1882) anadan olub.

**25 may 1905** – Ukrayna yazıçı-dramaturqu, akademik, dövlət xadimi Aleksandr Yevdomikoviç Korneyçuk (1905-1972) anadan olub.

**26 may 1822** – Fransız yazıçısı Edmon de Qonkur (Edmond Huot de Goncourt; 1822-1896) anadan olub. Yazıçı Jül de Qonkurun (1830-1870) böyük qardaşıdır. Fransanın ədəbiyyat üzrə Qonkur mükafatı (Prix Goncourt) onların şərəfinə təsis edilib.

**26 may 1842** – Gürcü yazıçısı və şairi Georgi Seretelli (1842-1900) anadan olub. Əsərləri: “İlk addım”, “Asimat xala”, “Boz qurd” və s.

**26 may 1904** – Türk şairi və mütəfəkkiri Nəcib Fazil Qısakürək (1904 – 25.5.1983) anadan olub.

**27 may 1840** – İtalyan bəstəkarı və skripkaçısı Nikkollo Paqanini (1782-1840) vəfat edib.

**Hazırladı: Vüqar Orxan**

# BXA-da rəqslərin musiqi tərtibatını əks etdirən kompakt disklərin təqdimatı




Bakı Xoreoqrafiya Akademiyasında (BXA) akademiyanın konsertmeysteri, tanınmış fortepiano ifaçısı, pedaqoq Sevda Axundovanın klassik, xalq-səhnə və Azərbaycan rəqslərinin musiqi tərtibatını əks etdirən kompakt disklərinin təqdimatı və sinif konserti keçirilib. Kompakt diskləri Azərbaycanda xoreoqrafiya sahəsində ilk dəfə ərsəyə gətirilib.

Təqdimatda BXA-nın bədii rəhbəri, rektor vəzifəsini müvəqqəti icra edən, Əməkdar artist Nailə Məmmədzadə, akademiyanın müəllim və tələbə heyəti, eləcə də Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdir müavini Sara Teymurova, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

BXA-nın rektor vəzifəsini müvəqqəti icra edən Nailə Məmmədzadə iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Sevda Axundovanın bu təşəbbüsündən xoreoqrafiya sənətində çalışan hər kəs bəhrələnəcək. N.Məmmədzadə Sevda Axundovaya gələcək fəaliyyətində uğurlar arzulayıb.

Mədəniyyət və İncəsənət Universitetinin dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, bəstəkar Gülnar Verdiyeva, BXA-nın tam orta təhsil pilləsinin direktoru Bəşarət Hüseynova, akademiyanın aparıcı müəllimi, Əməkdar incəsənət xadimi Rimma Məmmədova çıxış edərək Sevda Axundovanın peşəkar keyfiyyətlərindən söz açıb, onun Azərbaycan xoreoqrafiya təhsili tarixində etdiyi yeniliyi alqışlayıblar.

Sonra BXA-nın tam orta təhsil pilləsinin şagirdləri və bakalavr pilləsi üzrə təhsil alan tələbələrinin ifasında Azərbaycan, rus və Avropa bəstəkarlarının əsərləri təqdim olunub.

P.Çaykovskinin “Şelkunçik” baletindən variasiya, F.Əmirovun “Takkada”, “Heyratı” zərbi-muğamı, A.Skryabinin “Etüd”, Ə.Mustafazadənin “Əks-səda”, Q.Qarayevin simfonik qravürlərindən “Səyahət”, C.Hacıyevin “Ballada”, eləcə də Sevda Axundovanın xalq rəqsləri üzərində tərtib etdiyi rəqs variasiyaları müəllifin fortepianoda müşayiəti ilə təqdim edilərək alqışlarla qarşılanıb.

Sonda kompakt disklər BXA-nın əməkdaşlarına və qonaqlara hədiyyə olunub.

№39 (1912)
25 may 2022
www.medeniyyet.az

# “Şuşa İli” çərçivəsində Parisdə muğam axşamı

Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində “Şuşa İli” çərçivəsində “Qarabağ” muğam qrupunun konserti olub.



Azərbaycanın Fransadakı Səfirliyi və UNESCO üzrə Milli Komissiyasının birgə təşkilatçılığı ilə gerçəkləşən konsertdə Parisdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, mədəniyyət xadimləri, diaspor və yerli ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

Konsertdən əvvəl Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olmasından söz açıb, 2022-ci ilin ölkəmizdə “Şuşa İli” elan edildiyini diqqətə çatdırıb. Bildirib ki, Qarabağın tacı Şuşanın otuz ilə yaxın sürən işğaldan sonra azad edilməsi Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsinin zirvəsi idi. Qeyd olunub ki, Azərbaycan xalq musiqisinin inkişafında Şuşa şəhərində yetişən xanəndə və musiqişünasların müstəsna xidmətləri olub. Şuşanın xanəndələri bütün Qafqazda, Mərkəzi Asiyada, Yaxın və Orta Şərq ölkələrində məşhur olan muğam ifaçılığı məktəbi yaradıblar. Bu gün də muğam ifaçılarımız bu sənəti dünyada tanıdırlar.

Sonra Xalq artisti, xanəndə Mənsum İbrahimovun rəhbərliyi ilə “Qarabağ” muğam qrupunun konserti təqdim olunub. Xalq artisti Elçin Həşimov (tar), Əməkdar artist Elnur Əhmədov (kamança), Əməkdar artist Kamran Kərimovun (nağara) müşayiəti ilə Mənsum İbrahimov və muğam müsabiqəsinin qalibi Gülzar Fərəcova “Rast”, “Bayatı-Şiraz”, “Segah” muğamlarından parçalar, “Azərbaycan gözəli”, “Şuşanın dağları”, “Qarabağ”, “Yaşa, mənim xalqım!” mahnılarını ifa ediblər. “Uşaq Avroviziya – 2021” müsabiqəsinin iştirakçısı Sona Əzizova “Şuşam mənim” mahnısını oxuyub.

Parisdə koronavirus pandemiyasından sonra ilk muğam konsertini dinlədik. Konsert möhtəşəm idi.

Bu fikirləri konsertdən sonra Fransanın Azərbaycandakı sabiq səfiri Jan-Pyer Günyüt AZƏRTAC-a müsahibəsində söyləyib.

Azərbaycanda çalışdığı vaxtlarda öz iqamətgahında tez-tez muğam konsertləri təşkil etdiyini bildirən diplomat deyib: “Muğamı çox sevirəm. Muğam ən qədim və çətin, eləcə də mürəkkəb musiqidir. Muğam dünya musiqisinin incisi, özəyidir. Hindistandan tutmuş Mərakeşə qədər bütün ölkələrdə muğam ifa olunur. Ancaq muğam yalnız Azərbaycanda akademikləşdirilib, yəni elmi əsasda nəsildən-nəslə ötürülür...”.

# Vyanada “Odlar yurdunun sədaları”

## Beynəlxalq müsabiqənin finalı keçirilib

əvvəli səh. 1-də

AMM-in rəhbəri Leyla Qasımova gənc istedadların üzə çıxarılmasına zəmin yaradan müsabiqəyə qarşıdakı illərdə uğurlar arzulayıb və Azərbaycan musiqisini tanıtmağa xidmət edən bu kimi layihələrin dəstəklənəcəyini deyib.

Münsiflər heyətinin fəxri sədri, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli bildirib ki, müsabiqə klassik musiqi ifaçılığının inkişafına mühüm töhfədir. O, bütün finalçıların yüksək peşəkarlıq nümayiş etdirdiyini vurğulayıb və Azərbaycan bəstəkarlarının əsərlərini ən yaxşı ifa edən musiqiçiləri də təqdir edib.

Münsiflərin qiymətləndirməsinə görə, Heli Kanq (Cənubi Koreya) birinci, Anna Leyerer (Avstriya) ikinci və Qriqorios İoannou (Yunanıstan) üçüncü yeri tutublar. Müsabiqədə Azərbaycan bəstəkarlarının əsərlərinin ən yaxşı ifasına görə Aleksander Maria Vaqner (Almaniya) və Qriqorios İoannou xüsusi mükafata layiq görülüblər.

Mükafatlandırma mərasimindən sonra qaliblər konsert proqramı ilə çıxış ediblər. Qriqorios İoannounun ifasında Üzeyir Hacıbəylinin “Sənsiz“ romansı və Aleksander Maria Vaqnerin ifasında Tofiq Quliyevin “Cəmilənin albomu” (fortepiano üçün 12 pyes) əsəri xüsusi maraq doğurub.



Qeyd edək ki, “Odlar yurdunun sədaları” beynəlxalq musiqisi bu ilin yanvarında elan olunub. Ötən dövr ərzində Avstriyada yaşayan musiqiçilər Abuzər Manafzadə, Aria Torkanbouri, Jalə Rəsulova, musiqişünaslar Kəmalə Əhmədova və Fərəh Tahirova, eləcə də münsiflər heyəti müsabiqənin reallaşmasında yaxından iştirak ediblər.

Finalı onlayn və canlı ifadan ibarət olan müsabiqənin münsiflər heyətində Xalq artisti Fərhad Bədəlbəyli ilə yanaşı Xalq artisti Yusif Eyvazov, Əməkdar artistlər Rəna Rzayeva və İslam Manafov, əslən bakılı professor Oleq Marşev, professor Ştefan Möller kimi musiqiçilər yer alıb.

Təşkilatçılar müsabiqəyə marağı nəzərə alaraq növbəti illərdə fortepiano ifaçılığı ilə yanaşı, vokal və digər nominasiyalara da yer verilməsini nəzərdən keçirəcək.

# Xalqı dünyada tanıdan həm də onun yeməkləridir

## “Türk mətbəxi həftəsi”ndə Bakıda təqdimat



21-27 may tarixində Türkiyə Prezident Administrasiyasının təşkilatçılığı, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə bir sıra ölkələrdə “Türk mətbəxi həftəsi” keçirilir.

Layihə çərçivəsində mayın 21-də Bakıdakı Yunus Əmrə İnstitutunda türk mətbəxinin təqdimatına həsr olunmuş tədbir və “Türk mətbəxi” kitabının təqdimatı keçirildi. Tədbir Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və Bakı Yunus Əmrə İnstitutunun birgə əməkdaşlığı çərçivəsində gerçəkləşdi.

Qeyd edək ki, türk mətbəxinin ləziz nemətlərini bir yerə toplayan kitab Türkiyənin birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə ərsəyə gəlib.

Bakıdakı Yunus Əmrə İnstitutunun rəhbəri Selçuk Karakılıç qonaqları salamlayaraq institutun dünyanın 70 ölkəsində fəaliyyət göstərdiyini dedi. Bildirdi ki, məqsəd Türkiyənin mədəniyyətini, ədəbiyyatını, mətbəxini beynəlxalq aləmdə daha geniş tanıtmaqdır. Qida mədəniyyəti türklər üçün tarix boyu formalaşan fəlsəfi bir mədəniyyətdir. Türkiyənin fərqli bölgələrində bu mətbəx zəngiləşərək dəyişib və inkişaf edib.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı “Türk mətbəxi həftəsi”nin əhəmiyyətindən söz açdı. Bildirdi ki, biz mətbəximizi dünyaya tanıtmağa çalışırıq. Mətbəx mədəniyyəti dünyada önə çıxmış ən populyar mədəniyyətlərdən biridir. Diplomat Türkiyədə ən çox populyar yeməklər haqqında məlumat verərək qidalanma mədəniyyətinin insan həyatında önəmindən danışdı.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva türk mətbəxinin təbliği istiqamətində görülən işlərin əhəmiyyətini qeyd etdi: “Biz başqa ölkələrə səfər edərkən görürük ki, türk mətbəxi ilk beşliyə daxil olub. Bu istiqamətdə qardaş Türkiyə böyük işlər görüb. Türk mətbəxi hamımızın mətbəxidir. Azərbaycanda da bu istiqamətdə mühüm işlər görülür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə bir sıra mətbəx nümunələrimiz UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib...”.

Tədbirdə daha sonra Dünya İslam Kulinariya Birliyi və Azərbaycan Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmraslanov, Milli Məclisin deputatı Vüqar İsgəndərov çıxış etdilər.

Çıxışlardan sonra qonaqlar mətbəxdə türk ustalarının işləri ilə tanış oldular və İstanbul menyusunun müxtəlif təamlarının dadına baxdılar.

Qeyd edək ki, “Türk mətbəxi həftəsi” çərçivəsində Gəncə şəhərində də tədbir və “Türk mətbəxi” kitabının təqdimatı gerçəkləşib.

**Lalə Azəri**

# “Gənclərə dəstək” layihəsinin İzmir konsertləri

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Akademik Filarmoniyasının “Gənclərə dəstək” layihəsinin iştirakçıları Türkiyənin İzmir şəhərində konsert veriblər. Konsertlər layihənin “Şuşa İli”nə töhfəsi olaraq təşkil edilib.



Mayın 17-də İzmir Ege Universiteti Dövlət Türk Musiqi Konservatoriyasında təqdim olunan konsert proqramı dünya şöhrətli Azərbaycan bəstəkarı, əslən şuşalı olan Fikrət Əmirovun 100 illiyinə həsr edilib. Proqramda Fikrət Əmirovun əsərləri ifa olunub.

Konsertdə solistlər – respublika və beynəlxalq müsabiqələr laureatları, Prezident təqaüdçülərinin çıxışları böyük maraqla qarşılanıb.

“Gənclərə dəstək” layihəsi iştirakçılarının “Şuşa İli” çərçivəsində daha bir konserti İzmirdəki Suat Taşer Sənət Mərkəzində keçirilib.

Konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları Nurlanə Abdullazadə (vokal), Zümrüd Məmmədova (xanəndə), Zəminə Babayeva-Yalçın (qanun), Nuranə Əliyeva (piano), Elçin Hətəmli (tar), Surə Rüfət (violin), həmçinin Azərbaycan Milli Konservatoriyasının baş müəllimi, Prezident mükafatçısı, Azərbaycan Dövlət Akademik Filarmoniyası Xalq çalğı alətləri orkestrinin qanun ifaçısı Natəvan Həsənova və onun tələbələri İlkanə Cəfərova, Təhminə Əlixanova, Ülviyyə Dadaşova, Zilhiccə İsmayılova çıxış ediblər. Bütün iştirakçıları pianoda Əməkdar artist Nərgiz Əliyeva müşayiət edib.

Konsertin sonunda Zümrüd Məmmədovanın ifasında səslənən “Qarabağ şikəstəsi” sürəkli alqışlarla qarşılanıb.

Tədbirin koordinatorları – Azərbaycan Dövlət Akademik Filarmoniyasının rejissoru, musiqişünas Ayla Kərimova-Zəkəriyyə və Ege Universiteti Dövlət Türk Musiqi Konservatoriyasının doktorantı, qanun ifaçısı Zəminə Babayeva-Yalçın, həmçinin bütün ifaçılar diplom və təşəkkürnamələrlə təltif olunublar.

İzmir Xalq Təhsili Mərkəzinin direktoru Suat Korkmaz “Gənclərə dəstək” layihəsinin təşkilatçılarına, Azərbaycan Mədəniyyət Nazirliyinə və Azərbaycan Dövlət Akademik Filarmoniyasına təşəkkürünü bildirib.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 319 il əvvəl...

**27 may 1703-cü ildə** Rusiya çarı I Pyotrun əmri ilə Neva çayı sahilində Sankt-Peterburq şəhərinin təməli qoyulub. 10 il sonra şəhər Rusiya imperiyasının yeni paytaxtı elan edildi.

### 212 il əvvəl...

**25 may 1810-cu ildə** Argentinada İspaniya müstəmləkəçiliyinə qarşı üsyan başlayıb. Tarixə “May üsyanı” kimi düşən müharibə 16 il sürdü və Argentinanın tam müstəqilliyi ilə nəticələndi. 25 may bu ölkənin milli bayramı kimi qeyd olunur.

### 195 il əvvəl...

**26 may 1827-ci ildə** Rusiya-İran müharibəsi (1826-1828) gedişində rus qoşunları Azərbaycanın Naxçıvan şəhərini işğal ediblər. Bundan sonra Rusiya ordusu İrəvana, ardınca isə Təbriz, Urmiya və Ərdəbilə daxil oldu. Müharibə 1828-ci ildə Azərbaycanın Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya birləşdirilməsi ilə başa çatdı.

### 157 il əvvəl...

**25 may 1865-ci ildə** Amerikada vətəndaş müharibəsi (Şimal-Cənub müharibəsi) başa çatıb. Dörd il sürən müharibə Şimal ştatlarının qələbəsi ilə yekunlaşıb. Cənub ştatları Şimalın diktəsini (o cümlədən quldarlığın ləğvi) qəbul etməli oldular. Müharibədə hər iki tərəfdən ümumilikdə 360 min insan həlak olmuşdu.

### 104 il əvvəl...

**26 may 1918-ci ildə** Tiflisdə Zaqafqaziya Seyminin son iclası keçirilib. Gürcü heyəti Zaqafqaziyanı vahid dövlətdə birləşdirməyin qeyri-mümkün olduğunu bildirərək federasiyadan çıxıb. Seymin buraxılması, Zaqafqaziya Federativ Respublikasının ləğvi barədə qərar qəbul olunub. Həmin gün Gürcüstanın müstəqilliyi elan edilib. Zaqafqaziya Federasiyasının cəmi bir ay mövcud olmasının əsas səbəblərindən biri erməni tərəfin həm Azərbaycana, həm də Gürcüstana ərazi iddiaları idi.



**27 may 1918-ci ildə** Zaqafqaziya Seyminin süqutundan sonra qurumun azərbaycanlı deputatları Tiflisdə fövqəladə iclas keçirərək Azərbaycanın müvəqqəti Milli Şurasını yaradıblar. Azərbaycanın ilk parlamenti kimi fəaliyyətə başlayan 44 nəfərlik Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə, müavini Əhməd bəy Ağayev seçilib. Bir gün sonra Milli Şura Azərbaycanın müstəqilliyini elan etdi.

### 102 il əvvəl...

**25 may 1920-ci ildə** Gəncədə Azərbaycanın sovetləşməsinə qarşı üsyan başlayıb. Üsyana Cavad bəy Şıxlinski, Mirzə Məhəmməd Qacar və Cahangir bəy Kazımbəyov rəhbərlik edirdi. Bolşeviklər üsyanın yatırılması üçün şəhərə əlavə ordu hissələri yeridiblər. Gəncədə yaşayan ermənilər rusların ordusuna kömək edirdilər. Üsyan mayın 31-də qəddarlıqla yatırıldı.

### 76 il əvvəl...

**25 may 1946-cı ildə** İordaniya dövlət müstəqilliyini (İordaniya Haşimi Krallığı) əldə edib. 1918-ci ilədək (4 əsr) Osmanlı imperiyasının tərkibində olan İordaniya Birinci Dünya müharibəsinin yekunu olaraq Britaniyanın protektoratlığına keçmişdi. 1921-ci ildə Transiordaniya əmirliyi kimi nisbi özünüidarə əldə etmişdi.

### 30 il əvvəl...

**27 may 1992-ci ildə** Azərbaycan Parlamenti “Azərbaycan Respublikasının Dövlət Himni haqqında” qanun qəbul edib. 1919-cu ildə bəstəkar Üzeyir Hacıbəylinin şair Əhməd Cavadın sözlərinə yazdığı “Azərbaycan marşı” Dövlət himni kimi təsdiq edilib.

### 17 il əvvəl...




**25 may 2005-ci ildə** Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan hissəsinə neftin vurulması ilə bağlı mərasim keçirilib. Səngəçal terminalında gerçəkləşən mərasimdə Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan prezidentləri, ABŞ-ın energetika naziri iştirak ediblər. 2006-cı ilin mayında neft Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanına yetişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov və qalereyanın kollektivi Elnur Hüseynova anası

**İbrahimova Səbirə Cəlal qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1500
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641